# TIXACLARA QARŞI YENİ FORMUL

Paytaxt Bakıda iş vaxtlarının fərqli saatlarda başlaması üçün konkret addımlar atılacaq.

Paytaxtda işə başlama saatlarının fərqləndirilməsi məsələsi yenidən gündəmə gəlib. "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı"nda əksini tapan bu məsələ paytaxtda nəqliyyat sıxlığının azaldılması istiqamətində nəzərdən keçirilən mexanizmlərdən biri hesab olunur.

SƏHİFƏ 6-da



'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

20 İYUN ŞƏNBƏ 2026 № 22 (4273) Qiyməti - 60 qəpik www.kaspi.az





## ETİBARLI TƏRƏFDAŞLIĞIN KONTURLARI

Prezident İlham Əliyev ABŞ-li həmkarını 80 illik yubileyi münasibətilə təbrik edib. Azərbaycan ilə ABŞ arasında strateji tərəfdaşlığın təşəkkülündə Donald Trampın əvəzsiz xidmətləri olduğunu vurğulayıb.

SƏHİFƏ 3-də



## TİKİNTİSİ DAVAM EDİR, RİSKLƏR DƏ QALIR

TAPI-nin aktuallığı artır. Mərkəzi və Cənubi Asiya arasında əməkdaşlığı genişləndirməyi hədəfləyən layihənin əsas məqsədi Türkmənistanın zəngin qaz ehtiyatlarını Pakistan və Hindistan bazarlarına çatdırmaqdır.

SƏHİFƏ 5-də



## AVTOMOBİL BAZARINDA SƏRT "ƏYLƏC"

İdxal olunan minik avtomobillərinin sayı kəskin şəkildə azalıb. Əsas səbəblər kimi anbarlarda alıcısını gözləyən nəqliyyat vasitələri, taksilərə tətbiq edilən yeni limitlər və "ikinci əl" bazarına yönəlmə göstərilir.

SƏHİFƏ 13-də

### PREZİDENT ÖLKƏNİN GƏLƏCƏK PRİORİTETLƏRİNDƏN DANIŞIB

# GÜCLÜ LOGİSTİKA MƏRKƏZİNƏ ÇEVRİLMƏK HƏDƏFİ




Prezident İlham Əliyev: "Biz Azərbaycanı daha da güclü nəqliyyat-logistika mərkəzinə çevirməyə davam etməliyik. Məqsədimiz Azərbaycan ərazisindən daşınan yüklərin həcmini iki dəfə artırmaqdır".

**COĞRAFİYADAN BÜNÖVRƏ KİMİ İSTİFADƏ**

Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycanı açıq dənizə çıxışı olmayan ölkədən beynəlxalq nəqliyyat qovşağına çevirmək, güclü nəqliyyat infrastrukturunu qurmaq üçün coğrafiyamızdan bünövrə kimi istifadə etməyə çalışırıq.

**XARİCDƏN CƏLB EDİLƏN İNVESTİSİYA**

Prezident qeyd edib ki, Azərbaycanın iqtisadi inkişafı müsbətdir və iqtisadiyyat sabitdir: "Biz dəyəri 350 milyard ABŞ dollarından çox olan birbaşa investisiyaları, onların yarısını son 20 ildə demək olar ki, xarici mənbələrdən cəlb edə bilmişik".

SƏHİFƏ 2-də

### Real nəticələr 2029–2030-cu illərdə hiss olunacaq

# KƏND TƏSƏRRÜFATINDA YENİ DÖVR



Kənd təsərrüfatında ekoloji təmizliyə yönəlmiş yeni bir dövrə qədəm qoyulur. Təsdiqlənmiş Dövlət Proqramına əsasən, orqanik kənd təsərrüfatı məhsulları istehsalının əsaslı şəkildə genişləndirilməsi hədəflənir. Sənədə görə, ilk növbədə ölkənin orqanik istehsal gücü qiymətləndiriləcək, potensial məhsullar və prioritet regionlar müəyyənləşdiriləcək.

SƏHİFƏ 7-də



## YENİ REALLIQLAR VƏ DƏYİŞƏN MÜNASİBƏTLƏR

Azərbaycan-Avropa əlaqələri özünün çoxtərəfliliyi və davamlılığı ilə seçilir. Rəsmi Bakı siyasi müstəvidə müşahidə olunan fikir ayrılıqları, anlaşılmazlıqları iqtisadi sahədən kənar tutmağa çalışır.

SƏHİFƏ 4-də



## MOPEDLƏRLƏ BAĞLI QAYDALAR DƏYİŞİR

"Yol hərəkəti haqqında" qanunda dəyişiklik edilir. Əsas məqsəd mopedlərlə bağlı qanunvericilikdəki boşluqları aradan qaldırmaq və bu istiqamətdə hüquqi çərçivəni müəyyənləşdirməkdir.

SƏHİFƏ 10-da



## PULUN FUTBOLA QALİB GƏLDİYİ MUNDİAL

Müasir futbolda kommersiya maraqları xırda detallara da təsir edir. Keçirilmə saatından tutmuş turnir formatına, qarşılaşmaların sayından yayım qaydalarına qədər bir çox qərar iqtisadi səmərəlilik əsasında verilir.

SƏHİFƏ 16-da



SOCAR və ICD arasında memorandum imzalanıb

SƏHİFƏ 10-da



Tullantıların idarə edilməsində növbəti mərhələ

SƏHİFƏ 8-də



Abortlarla bağlı qorxunc statistika

SƏHİFƏ 14-də



Kriptovalyuta bazarında dalğalanma

SƏHİFƏ 12-də



Kiçik qərar, böyük təsir

SƏHİFƏ 15-də

# GÜCLÜ LOGİSTİKA MƏRKƏZİNƏ ÇEVRİLMƏK HƏDƏFİ

Prezident İlham Əliyev: “Biz Azərbaycanı daha da güclü nəqliyyat-logistika mərkəzinə çevirməyə davam etməliyik. Məqsədimiz Azərbaycan ərazisindən daşınan yüklərin həcmini iki dəfə artırmaqdır. Hazırda bu göstərici təxminən 14–15 milyon ton təşkil edir və biz bu rəqəmi ikiqat artırmağı hədəfləyirik”.




Bakıda İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə İllik Toplantılarının açılış mərasimi keçirilib. Tədbirdə çıxış edən Prezident İlham Əliyev qeyd edib ki, Azərbaycan regional və qlobal səviyyədə güclü əlaqələr sayəsində bir çox aspektdə mühüm iştirakçıya çevrilib: “Müstəqil xarici siyasətimiz beynəlxalq ictimaiyyətin güclü dəstəyini qazanıb. Dostlarımızın sayı ilbəil artır. Beynəlxalq ictimaiyyətin verdiyi dəstək çox nümunəvi anlarda öz əksini tapır”.

### “BİZ TƏBİİ QAZI 16 ÖLKƏYƏ NƏQL EDİRİK”

Dövlət başçısı bildirib ki, bu gün Azərbaycan boru kəməri ilə qaz təchizatının coğrafiyası baxımından birinci yerdədir: “Biz təbii qazı 16 ölkəyə nəql edirik. Onların sayı ilbəil artır və artmaqda davam edəcək. Neft təchizatı daha çox ölkələri əhatə edir və bu, hasilatçı, tranzit ölkələrə və istehlakçıların hamısına fayda gətirir. Beləliklə, bu, yaradılmış komanda işidir və həqiqətən, layihələrin mürəkkəb icrası, maliyyələşməsi, relyefi, qarşımızda olan müxtəlif siyasi manevrlər baxımından unikaldır. Biz əsasən infrastruktura sərmayə yatıraraq diqqətimizi təkcə ölkə daxilindəki infrastruktur üzərinə yox, ölkə daxilində olan beynəlxalq əhəmiyyətli infrastruktura cəmlədik. Digər sözlə, biz bildiyiniz kimi, Azərbaycanı açıq dənizə çıxışı olmayan ölkədən beynəlxalq nəqliyyat qovşağına çevirməyə, güclü nəqliyyat infrastrukturunu qurmaq üçün coğrafiyamızdan bünövrə kimi istifadə etməyə çalışdıq”.

Prezident bildirib ki, Azərbaycandan keçən dəhlizlər bir çox ölkə üçün əlaqələndirilmiş və razılaşdırılmış nəqliyyat vətərini yaradır.

## “Ehtiyatlarımız xarici borcumuzu 20 dəfə üstələyir”

Prezident qeyd edib ki, Azərbaycanın iqtisadi inkişafı müsbətdir və iqtisadiyyat sabitdir: “Biz dəyəri 350 milyard ABŞ dollarından çox olan birbaşa investisiyaları, onların yarısını son 20 ildə demək olar ki, xarici mənbələrdən cəlb edə bilmişik. Bizim investisiya planlarımız davam edir, çünki bu gün investorlar sabit yerlərin axtarışındadır. Əfsuslar olsun ki, vaxt ötdükcə sabit yerlərin sayı artmır. Təəssüf ki, bu, günümüzün reallığıdır. Buna görə yaxşı investisiya mühiti, investisiyaların qorunması, qanunvericilik bazası və artıq həyata keçirilmiş layihələr bizə təkcə enerji sahəsinə yox, həm də qeyri-enerji sahəsinə investisiyaları cəlb etməyə imkan verir ki, bu da, yeri gəlmişkən, bizim prioritetlərimizdən biridir”.

İlham Əliyevin sözlərinə görə, Azərbaycanın xarici valyutada ehtiyatları xarici borcumuzu 20 dəfə üstələyir: “Hesab edirəm ki, bu göstəriciyə görə Azərbaycan çox sabit maliyyə vəziyyəti, tarazlaşdırılmış büdcəsi olan aparıcı ölkələrdən biridir və bu hal reytinqimizi investisiya reytinqinə qaldıran “Moody’s” və “Fitch” kimi aparıcı reytinq agentlikləri tərəfindən dəyərləndirilir. Onların verdiyi proqnoz müsbət və sabitdir. Beləliklə, iqtisadi inkişafımızla bağlı hər hansı bir çətinlik görmürük və irimiqyaslı sosial proqramlarımız da buna uyğundur. Ötən bir neçə ildə əhalimizin demək olar ki, 30 faizindən çoxunu əhatə edən bir neçə sosial dəstək layihəsini icra etmişik”.

## Qarabağa 17 milyard dollarlıq investisiya

Dövlət başçısı işğaldan azad edilmiş ərazilərdə görülən işlərə də toxunub. Bildirib ki, bu gün artıq Qarabağda və Şərqi Zəngəzurda təxminən 90 min insan yaşayır, çalışır və təhsil alır: “Müxtəlif infrastruktur və yaşayış layihələrinin həyata keçirilməsi üçün dövlət büdcəsindən 15 milyard ABŞ dollarından artıq vəsait ayrılıb. Bütün maliyyə mənbələri nəzərə alındıqda isə azad edilmiş ərazilərə yönəldilən ümumi investisiyaların həcmi 17 milyard ABŞ dollarına yaxındır.

Hazırda genişmiqyaslı infrastruktur layihələri həyata keçirilir. Bunlara su anbarları, su kanalları, elektrik stansiyaları, artıq istifadəyə verilmiş beynəlxalq hava limanları, tunellər və körpülər daxildir. Azad edilmiş ərazilərin yenidən qurulması istiqamətində bizim səylərimizi dəstəklədiyinə görə İslam İnkişaf Bankı Qrupuna minnətdarıq”.

### GƏLƏCƏK PRİORİTETLƏR

İlham Əliyev Azərbaycanın gələcək prioritetlərindən də danışıb: “Biz Azərbaycanı daha da güclü nəqliyyat-logistika mərkəzinə çevirməyə davam etməliyik. Məqsədimiz Azərbaycan ərazisindən daşınan yüklərin həcmini iki dəfə artırmaqdır. Hazırda bu göstərici təxminən 14–15 milyon ton təşkil edir və biz bu rəqəmi ikiqat artırmağı hədəfləyirik. Ərzaq təhlükəsizliyi ilə bağlı planlarımız da tam aydındır. Kənd təsərrüfatının inkişafına dair bu yaxınlarda qəbul edilmiş dövlət proqramı çərçivəsində əsas istehlak məhsulları üzrə maksimum özünütəminetmə səviyyəsinə nail olmağı planlaşdırırıq”.

Növbəti prioritet olaraq bərpaolunan enerji qeyd olunub. Bildirilib ki, artıq beynəlxalq və yerli şirkətlərlə imzalanmış müqavilələr 2032-ci ilədək ölkəmizə 8 giqavat həcmində Günəş və külək enerjisi istehsal gücü qazandıracaq: “Bu, minimum göstəricidir. Söhbət niyyət protokollarından deyil, artıq imzalanmış konkret müqavilələrdən gedir və bu rəqəm gələcəkdə daha da artacaq. Hazırda biz ötürücü xətlərin yaradılması və enerji ixracı istiqamətində çalışırıq, çünki qeyd etdiyim kimi, bu qədər enerjiyə ehtiyacımız olmayacaq. Buna görə də enerjiyə ehtiyacı olan bazarlara, ilk növbədə, Avropaya enerji ötürülməsini təmin edəcək infrastruktur üzərində işləyirik”.

Çıxışlardan sonra tədbirdə “Qarabağ suvarma kanalının yenidən qurulması” layihəsi üzrə Çərçivə (Kredit) sazişi, “Qarabağ suvarma kanalının yenidən qurulması” layihəsi üzrə Qrant Sazişi və “Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və İslam İnkişaf Bankı arasında Azərbaycan Respublikası üçün Üzv Ölkə Tərəfdaşlıq Strategiyasının hazırlanmasına dair Anlaşma Memorandumu” imzalanıb.

# ETİBARLI TƏRƏFDAŞLIĞIN KONTURLARI



Azərbaycanla ABŞ arasındakı əlaqələrin inkişafında dövlət başçıları səviyyəsində qurulan şəxsi münasibətlərin də önəmli rolu qeyd edilməlidir. Prezident İlham Əliyevlə ABŞ Prezidenti Donald Trampın son bir il ərzində çoxsaylı təmasları, şəxsi münasibətləri dostluğa, dərin hörmət və etimada əsaslanır.



AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Bakı və Vaşinqton arasında münasibətlər yüksələn xətt üzrə inkişaf etməkdədir. Tərəflərin müxtəlif səviyyələrdə təmasları intensiv xarakteri ilə seçilir. Xüsusilə son zamanlarda ABŞ-dən olan yüksəkçinli rəsmilərin bölgəmizə səfərlərinin sıxlaşması Bakı-Vaşinqton gündəliyinin zənginliyi və çoxistiqamətliyindən xəbər verir.

### DONALD TRAMPA ÜNVANLANAN YUBİLEY TƏBRİKİ

Bu təmaslar ən ali səviyyədə də davam etdirilir - xüsusilə məktublaşma formasında. Bir müddət əvvəl Ağ ev rəhbəri Donald Trampın Prezident İlham Əliyevə mühüm mesajların ifadə olunduğu iki məktub ünvanlanması qarşı tərəfin Azərbaycanla münasibətlərin inkişafından məmnun olduğuna dəlalət edir. Bugünlərdə isə Prezident İlham Əliyev ABŞ-li həmkarını 80 illik yubileyi münasibətilə təbrik edib. Azərbaycan Prezidenti Azərbaycan ilə ABŞ arasında strateji tərəfdaşlığın təşəkkülündə və dərinləşməsində Donald Trampın əvəzsiz xidmətləri olduğunu vurğulayıb. Dövlət başçısı bildirib ki, keçən ilin avqustunda Ağ Evdə tarixi görüş zamanı əsası qoyulmuş Strateji Tərəfdaşlıq Xartiyasının altı ay sonra ABŞ-nin Vitse-prezidenti Cey. Di. Vensin ölkəmizə səfəri çərçivəsində imzalanması Azərbaycan-ABŞ əlaqələrini keyfiyyətcə yeni pilləyə qaldırdı.

### İKİTƏRƏFLİ ƏMƏKDAŞLIQ GÜNDƏLİYİNİN ƏSAS İSTİQAMƏTLƏRİ

Dövlət başçısının məktubunda ikitərəfli əməkdaşlıq gündəliyinin əsas istiqamətlərinə də toxunulub. Cənubi Qafqazda sülh prosesinin irəlilədilməsi və təşviqində Donald Trampın göstərdiyi qətiyyətə xüsusi vurğu edilib. “Vaşinqtonda şahidliyiniz ilə imzaladığımız üçtərəfli birgə bəyannamə, habelə Ermənistanla paraflanan Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Saziş sülh quruculuğu yolunda Sizin ardıcıl səylərinizin nəticəsidir. Eyni zamanda biz Azərbaycan Respublikasının əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz bağlantını təmin edəcək və Orta Dəhlizin bir hissəsinə çevriləcək “Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu”nu (TRIPP) regionda dayanıqlı sülhün inkişafına və əməkdaşlığa növbəti töhfə olaraq görürük”, - Prezident İlham Əliyev qeyd edib.

### GÜCLÜ VƏ QƏTİYYƏTLİ QARŞILIQLI SİYASİ İRADƏ

Azərbaycanla ABŞ arasındakı münasibətlərin inkişafında dövlət başçıları səviyyəsində qurulan şəxsi münasibətlərin də önəmli rolu qeyd edilməlidir. Prezident İlham Əliyevlə ABŞ Prezidenti Donald Trampın son bir il ərzində çoxsaylı təmasları, şəxsi münasibətləri dostluğa, dərin hörmət və etimada əsaslanır. Ali rəhbərliklər səviyyəsində qarşılıqlı anlaşmanın mövcudluğu müxtəlif sahələrdə ikitərəfli münasibətlərin daha da dərinləşdirilməsi üçün əlverişli zəmin yaradır. Məhz bunun nəticəsidir ki, Azərbaycan-ABŞ əlaqələrini bütün sahələrdə, xüsusilə də iqtisadi-ticari, sərmayə, enerji, təhlükəsizlik, bağlantılar, texnoloji və digər sahələrdə daha da inkişaf etdirmək, möhkəmləndirməklə bağlı ali səviyyədə qarşılıqlı güclü siyasi iradə mövcuddur. Yeni reallıqlar fonunda rəsmi Bakı Vaşinqtonla dostluğun və etibarlı tərəfdaşlığın dərinləşdirilməsi, səmərəli əməkdaşlığın hərtərəfli genişləndirilməsi istiqamətində birgə səylərin bundan sonra da uğurla davam edəcəyinə əmindir.

## Abraham Hamadenin Azərbaycana səfəri

Qeyd etdiyimiz kimi, ikitərəfli təmaslarda müxtəlif səviyyələrlə qarşılıqlı səfərlərin reallaşması da Bakı-Vaşinqton gündəliyinin intensivliyindən xəbər verir. Bu baxımdan ABŞ Konqresinin Nümayəndələr Palatasının üzvü Abraham Hamadenin Azərbaycana səfəri, buradakı təmasları, Prezident İlham Əliyevlə görüşü diqqət çəkir. Abraham Hamade ABŞ Konqresində Azadlığa Dəstək Aktına 907-ci düzəlişin ləğvi ilə bağlı irəli sürülmüş qanun layihəsinin həmmüəlliflərindən biridir. Hansı ki, bu bədnam düzəliş ikitərəfli əlaqələrin tam miqyasda inkişafında, potensialın daha geniş ölçüdə dəyərləndirilməsində əsas maneələrdən biri hesab olunur. Prezident İlham Əliyevin konqresmenlə görüşündə bu məsələyə də xüsusi diqqət ayrılıb. Abraham Hamadenin ABŞ Konqresində Azadlığa Dəstək Aktına 907-ci düzəlişin ləğvi ilə bağlı irəli sürülmüş qanun layihəsinə həmmüəllif olmasının əhəmiyyətinə toxunulub.

## 907-ci düzəlişin tam ləğvi zərurəti



Xatırladaq ki, “Azərbaycana qarşı yardım məhdudiyyətlərinin ləğvi” adlı qanun layihəsi Nümayəndələr Palatasının Respublikaçılar Partiyasından olan üzvü Luna Anna Paulina tərəfindən 2025-ci il dekabrın 9-da Konqresə təqdim edilib. Qanun layihəsinə əsasən, Azadlığa Dəstək Aktının 907-ci maddəsi ləğv edilir və qanunun mündəricatında həmin maddə ilə əlaqəli bənd çıxarılır.

A.Hamadenin səfəri çərçivəsində Xarici işlər naziri Ceyhun Bayramov və Milli Məclisin sədri Sahibə Qafarova ilə görüşlərdə də bu məsələ ətrafında geniş fikir mübadiləsi aparılıb. Prezident Donald Tramp tərəfindən 907-ci düzəlişin dayandırılması müddətinin uzadılması ilə bağlı memorandumun imzalanması yüksək qiymətləndirilib. Bu addımın ölkələrimiz arasında qarşılıqlı maraq doğuran sahələr üzrə praktiki əməkdaşlığın asanlaşdırılmasına xidmət etdiyi vurğulanıb. Bununla belə, həmin düzəlişin birdəfəlik ləğvi istiqamətində zəruri addımların atılmasının vacibliyi önə çəkilib.

Göründüyü kimi, ABŞ-Azərbaycan münasibətlərinin sağlam təməllər üzərində, bərabərhüquqluluq və milli maraqlara hörmət əsasında inkişafı hər iki tərəfdə məmnunluqla qarşılanır. Sülh prosesinin irəlilədilməsi, bu istiqamətdə zəruri addımların atılması isə ümumilikdə ABŞ-Azərbaycan-Cənubi Qafqaz əməkdaşlığına yeni impuls verəcək.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi


# YENİ REALLIQLAR VƏ DƏYİŞƏN MÜNASİBƏTLƏR

Avropanın ümumi strateji maraqlarının təminində Azərbaycan amilinin rolu sürətlə artır. Bir vaxtlar rəsmi Bakıya təzyiq yolu seçənlər indi əməkdaşlıq üçün xahişlər edirlər.



**AZAD ƏLİYEV**
azad.eliyev@kaspi.az

Bir müddət əvvəl Avropa Parlamentində Azərbaycanla bağlı dinləmələr zamanı deputatların ölkəmizlə bağlı qurumun yol verdiyi səhvləri tənqid edən sərt çıxışlarının şahidi olduq. Bir anlıq belə bir təsəvvür yarandı ki, Azərbaycana qarşı onlarla qətnamə qəbul edən Avropa Parlamentinin, ən önəmlisi isə bu xətti yürüdən Qərb dövlətlərinin mövqelərində ciddi dönüş müşahidə olunmaqdadır. Bəs həqiqətən də belədirmi? Bu zamana qədər anti-Azərbaycan təbliğatın əsas ruporuna çevrilənlər, erməni lobbisinin maraqlarını və tələblərini sözsüz yerinə yetirənlər doğrudanmı həqiqəti görməyə başlayıblar?

Öncə ondan başlayaq ki, Azərbaycan-Aİ əlaqələri özünün çoxtərəfliliyi ilə seçilir. Rəsmi Bakı siyasi müstəvidə müşahidə olunan fikir ayrılıqları, anlaşılmazlıqları iqtisadi sahədən kənar tutmağa çalışır. Məhz bu mövqe Azərbaycanın etibarlı və güvənilən strateji tərəfdaş statusunu şərtləndirən ən mühüm amillərdən biridir. Azərbaycan istənilən şərtlər daxilində beynəlxalq səviyyədə öz imzasına, öhdəliyinə daim əməl edib. Bu səbəbdən qarşılıqlı maraqların üstün tutulduğu və iqtisadi platformaya əsaslanan strateji xətt siyasi müstəvidə müşahidə edilən gərginliklərin bir addım önünə keçməyi bacarıb.

### AZƏRBAYCAN PREZİDENTİNƏ EDİLƏN ZƏNGLƏR

Artıq biz Avropa dövlətlərinin ölkəmizə qarşı sərgilədikləri mövqelərdə bu üstünlüyü açıq şəkildə müşahidə edə bilirik. Bugünlərdə Prezident İlham Əliyev ilə Niderland Krallığının Baş naziri Rob Yetten arasında telefon danışığı olub. Bu barədə Prezidentin “X” sosial şəbəkə hesabında paylaşım edilib. “Bu gün Niderlandın Baş naziri Rob Yetten mənə telefon zəngi etdi. Siyasi dialoqumuzu və iqtisadi əməkdaşlığımızı daha da dərinləşdirmək barədə razılığa gəldik. Biz, həmçinin regional proseslər ətrafında fikir mübadiləsi apardıq və mən Niderlandın bölgədə dayanıqlı sülhə və sabitliyə verdiyi dəstəyə görə məmnunluğumu bildirdim”, - deyə Azərbaycan Prezidenti qeyd edib.

Bu yerdə Fransa Prezidenti Emmanuel Makronun da Prezident İlham Əliyevə zəng edərək ikitərəfli münasibətlərdə müşahidə olunan dalğalanmaları sonlandırmaq istəyini bəyan etməsini xatırlatmaq yerinə düşər.




## Anti-Azərbaycan mövqeləri dəyişdirən səbəblər

Niderland və Fransa kimi dövlətlərin adını təsadüfən xatırlatmadıq. Uzun illər ərzində Avropa Parlamenti də daxil olmaqla, bir çox Qərb qurumlarının anti-Azərbaycan təbliğatının mərkəzində məhz bu iki dövlət dayanıb. İstər Niderland parlamenti, istərsə də Fransa Senatında keçmiş münaqişə ilə bağlı qəbul edilən qətnamələri xatırlatmaq kifayətdir. Hansı ki, tamamilə reallıqdan uzaq, Azərbaycanın suverenliyi və ərazi bütövlüyünü şübhə altına alan, həqiqətlərin təhrif olunduğu bu qətnamələrin rəsmi Bakının mövqeyinə heç bir təsir etmək gücündə olmadığını dəfələrlə müşahidə etmişik. İndi isə vəziyyət sürətlə dəyişir. Mövcud beynəlxalq konyunkturada strateji maraqlar ön plana çıxır. Avropanın ümumi strateji maraqlarının təminində isə Azərbaycan amilinin rolu sürətlə artır. İstər enerji təhlükəsizliyi, istərsə də etibarlı beynəlxalq tranzit həlqəsinin



əsas təşəbbüskarlarından biri kimi rəsmi Bakının mövqeyi hətta ölkəmizə qarşı təbliğatın mərkəzləri sayılan bu dövlətlər tərəfindən də qəbul olunmağa başlanılıb.

### “BİR ÇOX AVROPA SİYASƏTÇİLƏRİ AZƏRBAYCANIN ƏHƏMİYYƏTİNİ ANLAMIRLAR”

Bu məqamda rumıniyalı deputat, Avropa Parlamentinin üzvü Kristian Terheşin “Report”a müsahibəsi zamanı səsləndirdiyi fikirlər də diqqət çəkir. Avropa Parlamentinin üzvünün etirafları uzun illər ərzində aparılan çoxtərəfli və səssiz diplomatiya çərçivəsində Azərbaycanın bəyan etdiyi prinsiplərlə tamamilə üst-üstə düşür. K.Terheş bildirir ki, bir çox Avropa siyasətçiləri Azərbaycanın əhəmiyyətini və Cənubi Qafqazın reallıqlarını hələ də kifayət qədər anlamırlar: “Hər beş ildən bir Avropa Parlamentinin deputatlarının təxmini yarısı yenilənir. Regionu yaxşı bilən təcrübəli deputatlar gedir, onların yerinə isə çox vaxt regionun tarixi, çağırışları və strateji əhəmiyyəti barədə məhdud təsəvvürə malik yeni deputatlar gəlir. Ona görə də, Azərbaycanın və bütövlükdə regionun əhəmiyyətinin izah edilməsi daimi işdir.

Biz keçmişi dəyişə bilmərik, lakin diqqətimizi dialoqun, tərəfdaşlığın və etimadın bərpasına cəmləyə bilərik. Avropa Parlamenti deputatlarının Azərbaycanın Avropa, Avropanın da Azərbaycan üçün əhəmiyyətini daha yaxşı anlamaları vacibdir”.

## Terheş: “Hər iki tərəf çox şey qazana bilər”

Avropa Parlamentinin üzvü özü də etiraf edir ki, köhnə qitənin siyasi və iqtisadi cəhətdən ciddi dalğalanmalara məruz qaldığı indiki məqamda Azərbaycan bir sıra səbəblərə görə strateji cəhətdən əhəmiyyətlidir: “O, energetika, nəqliyyat əlaqələri sahəsində tərəfdaş və Avropa ilə Asiya arasında bir körpüdür. Ölkə unikal coğrafi mövqeyə malikdir və regional nəqliyyat və ticarət şəbəkələrində mühüm rol oynayır. Buna görə də, Aİ ilə Azərbaycan arasındakı münasibətlərə uzunmüddətli strategiya prizmasından baxmalıyıq. Hər iki tərəf sıx əməkdaşlıqdan çox şey qazana bilər”.

Bəli, Cənubi Qafqazda yaranan yeni reallıqlar məhz Azərbaycanın ali rəhbərliyinin qətiyyətli iradəsi və praqmatik siyasətinin nəticəsidir. Dünya üçün əhəmiyyəti artan bölgəmizdə özünün də maraqlarını qorumaq istəyən istənilən güc Azərbaycanın irəli sürdüyü və hamı üçün sərfəli olan əməkdaşlıq platformasına yönəlmalidir.



Kristian Terheş

# TİKİNTİSİ DAVAM EDİR, RİSKLƏR DƏ QALIR

Türkmənistan-Əfqanıstan-Pakistan-Hindistan qaz kəməri regionun gələcəyi üçün böyük perspektivlər vəd edir. Amma layihənin reallaşmasını çətinləşdirən amillər həllini tapmır.



AZƏR NURİYEV

Türkmənistan, Əfqanıstan, Pakistan və Hindistanın adlarının baş hərflərindən formalaşan TAPI layihəsinin aktuallığı artır. Mərkəzi və Cənubi Asiya arasında enerji əməkdaşlığını genişləndirməyi hədəfləyən bu layihənin əsas məqsədi Türkmənistanın zəngin qaz ehtiyatlarını Əfqanıstan üzərindən Pakistan və Hindistan bazarlarına çatdırmaqdır. Təxminən 1800 kilometr uzunluğunda nəzərdə tutulan qaz kəmərinin illik ötürmə gücünün 33 milyard kubmetr olması planlaşdırılır. Layihənin mənbəyi isə dünyanın ən böyük qaz yataqlarından olan "Kalkınış"dır.

### LAYİHƏNİN İQTİSADİ VƏ GEOSİYASİ ƏHƏMİYYƏTİ

TAPI layihəsi iqtisadi baxımdan iştirakçı ölkələr üçün mühüm üstünlüklər vəd edir. Türkmənistan üçün bu layihə qaz ixracı marşrutlarının şaxələndirilməsi və yeni bazarlara çıxış deməkdir. Pakistan və Hindistan sürətlə artan enerji tələbatını qarşılamaq üçün əlavə və sabit qaz mənbəyi əldə edə bilərlər. Əfqanıstan isə tranzit ölkə kimi hər il milyonlarla dollar gəlir əldə etməklə yanaşı, yeni iş yerlərinin açılmasından və infrastrukturun inkişafından faydalanacaq.

Layihənin geosiyasi əhəmiyyəti də böyükdür. TAPI region ölkələri arasında qarşılıqlı iqtisadi asılılığı artıraraq əməkdaşlığın dərinləşməsinə töhfə verə bilər. Eyni zamanda, layihə Mərkəzi Asiyanın enerji resurslarının beynəlxalq bazarlara çıxarılmasında yeni marşrut kimi çıxış edir.



## HƏLLİNİ GÖZLƏYƏN PROBLEMLƏR

Bununla yanaşı, TAPI-nin həyata keçirilməsi çətinliklərlə müşayiət olunur. Ən ciddi problemlərdən biri təhlükəsizlik məsələsidir. Qaz kəmərinin Əfqanıstan ərazisindən keçməsi layihənin təhlükəsizliyi ilə bağlı riskləri artırır. Bundan əlavə, maliyyələşdirmə, regional siyasi münasibətlər və enerji bazarlarında dəyişən şərtlər layihənin icrasına təsir göstərən amillər sırasındadır.

Son illərdə layihənin reallaşdırılması istiqamətində müəyyən addımlar atılsa da, TAPI hələ də tam şəkildə istismara verilməyib.

Layihənin gələcəyi region ölkələrinin siyasi iradəsindən, təhlükəsizlik mühitindən və beynəlxalq investisiya dəstəyindən asılı olacaq. Lakin hazırda türkmən qazının yolunda hələ çox problem var – Kabil hələ də beynəlxalq təcrid altındadır və magistralın müdafiəsini təmin edə biləcəyi məlum deyil. Əfqanıstan, Pakistan və Hindistan arasındakı münasibətlər də tərəfdaşlıqdan uzaqdır. Buna baxmayaraq, TAPI layihəsi açar əhəmiyyətli 153 kilometrlik Sərhadabat (keçmiş Kuşka) - Herat hissəsində intensiv tikinti mərhələsinə keçib. Türkmənistanın "Nebit-qaz" nəşrinin məlumatına görə, Əfqanıstan ərazisində iş qaynayır: Türkmənistandan olan 700-dən çox mütəxəssis, buldozerlər və ekskavatordan ibarət 250 ağır texnika sutka boyu işləyir.

### TALİBLƏR ÜÇÜN ÖZLƏRİNİ TƏSDİQ ŞANSI

TAPI Əfqanıstanı idarə edən taliblər üçün əlverişlidir: layihə onların idarəetmə qabiliyyətini, təhlükəsizliyi təmin etmək bacarığını sınamış olacaq. Tam beynəlxalq tanınmanın olmadığı şəraitdə infrastruktur layihələri Kabil üçün diplomatik legitimliyin simvoluna çevrilə bilər. Əgər kəmər çəkilir, yollar salınır, xarici tərəfdaşlar gəlib müqavilələri müzakirə edirsə, deməli, Əfqanıstanın indiki hakimiyyəti ilə iş görmək olar. Lakin risklər də var. Kəmər Əfqanıstan ərazisində taliblərin mütləq nəzarətə malik olmadığı ərazilərdən də keçməlidir.



## İKİNCİ RİSK – PAKİSTANDIR

İkinci risk – Pakistandır. Pakistan hissəsi olmadan TAPI mənasını itirir. Qaz kəməri Türkmənistan-Əfqanıstan borusu kimi deyil, Cənubi Asiya bazarlarına uzanan marşrut kimi nəzərdə tutulub. Amma heç kimə sirr deyil ki, Kabil və İslamabadın münasibətləri yenidən gərginləşir.

Üçüncü risk – Hindistandır. TAPI əvvəlcədən dördtərəfli sxem kimi qurulmuşdu, lakin Nyu-Delhi və İslamabadın mürəkkəb münasibətləri Pakistan vasitəsilə hər hansı böyük tranzit layihəsini siyasi iqlimə asılı edir.

Xatırladaq ki, 2025-ci il aprelin 22-də Kuala-Lumpurda keçirilən TAPI-yə investisiyaların cəlb edilməsi forumundan bir gün əvvəl Hindistanın Cammu və Kəşmir regionundakı Pahalqam şəhəri rayonunda, faktiki olaraq TAPI-nin keçəcəyi ərazilərdə terror aktı törədildi. Bu da TAPI üzrə qazın hipotetik alıcıları olan Hindistan və Pakistan arasında tam miqyaslı hərbi toqquşmaya çevrildi.

### ABŞ-NİN GEOSİYASİ PLANLARININ VƏ AMBİSİYALARININ GİROVU

TAPI-nin tikintisinə və işinə ABŞ-nin "Taliban"a qarşı sanksiyaları da mane ola bilər ki, bu da faktiki olaraq boru kəmərinin işləməsini Vaşinqtonun geosiyasi planlarının və ambisiyalarının girovuna çevirir. Türkmənistan ABŞ hakimiyyətinə TAPI-nin tikintisinin və fəaliyyətinin sanksiyalar siyahısından çıxarılması barədə müraciət edib, lakin Vaşinqtonun cavabı haqqında hələlik heç nə məlum deyil.

Göründüyü kimi, TAPI yalnız regional enerji əməkdaşlığı təşəbbüsü deyil, həm də Əfqanıstanın gələcək iqtisadi inkişafı və siyasi sabitliyi üçün mühüm strateji platformadır.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# TIXACLARA QARŞI YENİ FORMUL

Bakıda iş vaxtlarının fərqli saatlarda başlaması üçün konkret addımlar atılacaq. Nəqliyyatı Əlaqələndirmə Şurası tərəfindən aparılan təhlillərin yaxın zamanlarda tamamlanması nəzərdə tutulur.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Paytaxtda iş qrafiklərinin mərhələli şəkildə dəyişdirilməsi və işə başlama saatlarının fərqləndirilməsi məsələsi yenidən gündəmə gəlib. "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025-2030-cu illər üçün Dövlət Proqramı"nda əksini tapan bu məsələ paytaxtda nəqliyyat sıxlığının azaldılması istiqamətində nəzərdən keçirilən mexanizmlərdən biri hesab olunur. Sənədə əsasən, dövlət orqanlarının, təhsil və tibb müəssisələrinin, habelə digər hüquqi və fiziki şəxslərin iş rejiminin dəyişkən iş qrafikinə əsasən təşkili nəzərdə tutulur.

### "YAXIN VAXTLARDA KONKRET ADDIMLARIN ATILMASI GÖZLƏNİLİR"

Millət vəkili Vüqar Bayramov mətbuata açıqlamasında bildirib ki, bu istiqamətdə artıq yaxın vaxtlarda konkret addımların atılması gözlənilir və proses məhz 2026-cı ilin sonuna qədər həyata keçiriləcək: "Dəyişkən iş qrafikinin tətbiqi ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Elm və Təhsil Nazirliyi, Səhiyyə Nazirliyi, TƏBİB və Nəqliyyatı Əlaqələndirmə Şurası tərəfindən aparılan təhlillər yaxın zamanlarda tamamlanmalıdır. Bununla da, Nazirlər Kabineti tərəfindən təsdiq ediləcək siyahılara əsasən, dəyişkən iş rejimi təşkil olunacaq".

Deputat bildirib ki, fərqli işə başlama saatları nəqliyyat yüklənməsini bölüşdürür və səhər-axşam pik vaxtlarda sıxlığı azaldır: "Avropa təcrübəsi göstərir ki, dəyişkən iş qrafiki yol-nəqliyyat sıxlığını azaldır, ictimai nəqliyyatda yüklənməni bölüşdürür, işçi məhsuldarlığını artırır və şəhər infrastrukturuna düşən təzyiqi azaldır".

V.Bayramov qeyd edib ki, dəyişkən iş qrafikinin tətbiqi nəqliyyat sıxlığını tam aradan qaldırmaq deyil, azaltmaq üçün tətbiq olunur. Belə ki, nəqliyyatda sıxlığın aradan qaldırılması infrastrukturun genişləndirilməsi ilə yanaşı, oxşar digər dolayı tədbirlərin icrasından birbaşa asılıdır.







Vüqar Bayramov

Foto: Firudin Səlimov - Global Photostock

## Avropada da dəyişkən iş rejimi tətbiq edilir

Qeyd edək ki, bir çox inkişaf etmiş ölkələrdə, xüsusilə Avropada dəyişkən iş rejiminin artıq tətbiq olunduğu və bu modelin konkret nəticələr verdiyi də bildirilir. Nəqliyyat üzrə elmi araşdırmalar da göstərir ki, insanların hamısının eyni saatda işə başlaması nəqliyyat sistemində "pik yük" yaradır. İşə başlama vaxtlarının fərqləndirilməsi isə nəqliyyat axınını gün ərzində daha bərabər bölüşdürərək hərəkət sürətini artıra və səfər müddətini azalda bilər.

Cəmiyyətdə bu dəyişikliyin tıxacların azalmasına real təsirinin necə olacağı böyük maraq doğurur. Ekspertlər arasında bu addımın paytaxtdakı xroniki tıxac probleminin həllinə nə dərəcədə təsir göstərə biləcəyi ilə bağlı fərqli yanaşmalar mövcuddur.



Elşən Bağırzadə



Sahib Məmmədov

### "Tıxaclara tam deyil, yalnız müəyyən təsiri ola bilər"

İqtisadçı Elşən Bağırzadənin sözlərinə görə, dünyada çox az ölkədə iş saatlarını tıxaca görə tənzimləmək təcrübəsi mövcuddur: "İş saatları daha çox şəhərin havasına, iqtisadi mühitinə görə tənzimlənir. Məsələn, ərəb ölkələrində hava çox isti olduğu üçün onlarda iş səhər 8.00-da başlayır və günorta 13.00-a kimi davam edir. Bundan sonra işçilər evə gedirlər. Onlar bir də axşamüstü 17.00-da yenidə işə gəlirlər və 20.00-ə qədər işləyirlər. Bizdə bəzi iş yerlərində insanlar 15.00-a qədər işləyirlər. İş qrafikinin bölünməsi o zaman effekt gətirər ki, bu bölgü düzgün olsun".

İqtisadçının fikrincə, Bakıda tıxaclara ən çox təsir göstərən orta məktəblərə gedənlərdir. Ekspertin fikrincə, iş qrafikinin düzgün bölünməsinin tıxaclara tam deyil, yalnız müəyyən təsiri ola bilər: "Burada ən önəmli məsələ koordinasiyanın pozulmaması – müəssisələrin bir-biri ilə əlaqələrinin qorunub saxlanması vacib amildir. İş qrafikinin bir saat fərqli olması gün ərzində iki saat itkiyə bərabərdir. Bir-birindən asılı olmayan təşkilatlar üçün fərqli iş saatları olmalıdır ki, itki baş verməsin".

### NƏZƏRDƏ TUTULAN 67 TƏDBİRDƏN BİRİ

Hüquq müdafiəçisi Sahib Məmmədov da iş qrafikinin dəyişdirilməsinin nəqliyyat tıxaclarının aradan qaldırılmasında mühüm rol oynayacağına şübhə ilə yanaşır. Onun sözlərinə görə, Bakı şəhərinin nəqliyyat infrastrukturunun tənzimləməsini nəzərdə tutan Dövlət Proqramında yeni yolların çəkilməsi, körpülərin salınması, keçidlərin qurulması və s. kimi 67 tədbir nəzərdə tutulub. Bunlardan biri də iş qrafiklərinin tənzimlənməsi ilə bağlıdır: "İş qrafiki, məktəblərdə tənzimləyici tədbirlərin görülməsi əlavə tədbirlər kimi nəzərdə tutulub. Bu, yalnız dövlət sektorunda mümkün ola bilər. Xırda özəl müəssisələrdə - ticarət obyektlərində, kiçik ofislərdə kim qrafikin tənzimlənməsinə nəzarət edəcək? Dövlət sektorunun da hamısında bunu etmək mümkün deyil. Elə iri zavodlar var ki, onlar 24/7 saat növbə rejimində işləyirlər. Orada bu tənzimləmə alınmayacaq".

S.Məmmədovun sözlərinə görə, bəzi dövlət orqanları var ki, onlarla bağlı təkliflər Nazirlər Kabinetinə təqdim edilib: "Dövlət Proqramında da nəzərdə tutulan odur ki, dövlət orqanları təkliflər versin. Verilən təkliflərə baxılacaq və ondan sonra qərar veriləcək. Amma açığı, şəxsən mən bu keçidin fayda verəcəyinə inanmıram. Bu, 67 tədbirin kontekstində, yalnız bir az kömək edə bilər".

# KƏND TƏSƏRRÜFATINDA YENİ DÖVR

Orqanik məhsul istehsalının artırılması, ixrac imkanlarının genişləndirilməsi və ekoloji dayanıqlılığın gücləndirilməsi yeni Dövlət Proqramının əsas hədəflərindəndir. Ekspertlər məqsədlərə çatmaq üçün maarifləndirmə ilə yanaşı, maliyyə və texnoloji dəstəyin də vacib olduğunu bildirirlər.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Azərbaycan kənd təsərrüfatında ekoloji təmizliyə yönəlmiş yeni bir dövrə qədəm qoyur. Təsdiqlənmiş Dövlət Proqramına əsasən, 2026–2030-cu illərdə ölkədə orqanik kənd təsərrüfatı məhsulları istehsalının əsaslı şəkildə genişləndirilməsi hədəflənir. Sənədə görə, ilk növbədə ölkənin orqanik istehsal gücü qiymətləndiriləcək, potensial məhsullar və prioritet regionlar müəyyənləşdiriləcək. Seçilmiş ərazilərdə fermerlərin məlumatlılıq səviyyəsinin artırılması üçün təbliğat-təşviqat tədbirləri həyata keçiriləcək, təlim proqramları təşkil olunacaq və əyani təcrübə üçün pilot orqanik təsərrüfatlar yaradılacaq. Bu fundamental keçid prosesi mühüm suallar da gətirir. Kağız üzərindəki hədəflər praktikada necə icra olunacaq?

### "MƏQSƏD ƏLVERİŞLİ ƏRAZİLƏRDƏ UĞURLU MODELLƏR FORMALAŞDIRMAQDIR"

Kənd Təsərrüfatı Nazirliyindən sorğumuza cavab olaraq bildirildi ki, Dövlət Proqramının icrası mərhələli şəkildə həyata keçiriləcək. İlkin mərhələdə orqanik istehsal potensialının qiymətləndirilməsi aparılacaq, beynəlxalq təcrübə öyrəniləcək: "Növbəti mərhələlərdə seçilmiş regionlarda intensiv maarifləndirmə tədbirləri təşkil olunacaq, nümayiş xarakterli nümunəvi pilot təsərrüfatlar qurulacaq. Bu proseslər aidiyyəti dövlət qurumları, elmi-tədqiqat institutları və beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq çərçivəsində reallaşdırılacaq. Pilot təsərrüfatların yaradılmasına proqramın icrasının ilk illərində start veriləcək. Proqramın əhatə edəcəyi regionların konkret sayı əvvəlcədən məhdudlaşdırılmayıb. Əsas məqsəd sadəcə geniş coğrafiyanı əhatə etmək deyil, orqanik istehsal üçün əlverişli ərazilərdə tam işlək, uğurlu modellər formalaşdırmaqdır. Buna görə də regionların sayı aparılacaq qiymətləndirmələrdən və ayrılacaq resurslardan asılı olacaq".

Həmçinin bildirildi ki, regionların və məhsulların seçimi zamanı torpaq örtüyünün vəziyyəti, iqlim şəraiti, ərazidə gübrə istifadə xüsusiyyətləri, ixrac potensialı, daxili bazarın tələbatı və fermerlərin marağı kimi əsas meyarlar nəzərə alınacaq. İlkin qiymətləndirmələrə əsasən, meyvə-giləmeyvə, tərəvəz, çay, arıçılıq və dərman bitkiləri kimi sahələrə xüsusi diqqət yetiriləcək: "İstehlakçı etimadının yüksəldilməsi üçün beynəlxalq standartlara cavab verən sertifikatlaşdırma mexanizmləri yaradılacaq. Sertifikatlaşdırılmış orqanik məhsulların istehsal həcminin artması və daxili bazarda xüsusi paya sahib olması kimi daha geniş iqtisadi nəticələr isə proqram dövrünün sonuna doğru və ondan sonrakı illərdə özünü aydın göstərəcək".





Nahid Əzizli

### "FERMERLƏRƏ TEXNOLOGİYALARI ƏYANİ ÖYRƏNMƏK İMKANI VERƏCƏK"

Lənkəran Dövlət Universitetinin Aqrar və mühəndislik fakültəsinin müəllimi Nahid Əzizlinin sözlərinə görə, məqsəd Azərbaycanda orqanik kənd təsərrüfatının sistemli şəkildə inkişaf etdirilməsidir. Praktik baxımdan bu prosesə ilk növbədə müxtəlif bölgələrdə orqanik istehsal potensialının qiymətləndirilməsi ilə başlanması məqsədəuyğundur: "Növbəti mərhələdə pilot təsərrüfatların yaradılması və fermerlər üçün praktiki təlimlərin təşkil olunması tövsiyə edilir. Maarifləndirmə çox vacib olsa da, təkbaşına kifayət etmir. Orqanik istehsala keçid fermerlər üçün müəyyən risklər və əlavə xərclər yaradır. Keçid dövründə məhsuldarlığın müvəqqəti azalması, sertifikatlaşdırma xərcləri və yeni texnologiyaların tətbiqi əlavə maliyyə yükü deməkdir. Məhz bu səbəbdən, dövlət tərəfindən subsidiyaların ayrılması, güzəştli kreditlərin verilməsi, sertifikatlaşdırma xərclərinin qismən qarşılanması və bazara çıxış imkanlarının genişləndirilməsi mühüm əhəmiyyət daşıyır".

### REAL NƏTİCƏLƏR 2029–2030-CU İLLƏRDƏ HİSS OLUNACAQ

Ekspertin fikrincə, Dövlət Proqramının uğurlu icrası nəticəsində Azərbaycanda yüksək əlavə dəyərə malik kənd təsərrüfatı məhsulları istehsalının artacağı gözlənilir: "Dünya bazarında orqanik məhsullara tələbat ildən-ilə artır və bu məhsullar ənənəvi analoqları ilə müqayisədə daha yüksək qiymətə satılır. Bu baxımdan, proqram ixrac potensialının genişlənməsinə və fermerlərin gəlirlərinin artmasına müsbət təsir göstərəcək. Orqanik kənd təsərrüfatı qısa müddətdə ani nəticələr verən sahə deyil. İlkin nəticələrin 2027–2028-ci illərdən etibarən özünü göstərəcəyi proqnozlaşdırılır. Proqramın daha geniş iqtisadi və sosial təsirləri isə sonrakı mərhələdə – 2029–2030-cu illərdə aydın hiss olunacaq".

## "ƏGƏR QƏRARIN DÜZGÜN İCRA MEXANİZMİ TƏMİN OLUNARSA..."

İqtisadçı Rauf Qarayevin sözlərinə görə, müasir texnologiyaların tətbiq edildiyi, yem bazasına malik olan və cins heyvanların, eləcə də balıqların saxlanıldığı təsərrüfatların 2027-ci ildən etibarən 5 il müddətinə manatla aldıqları kreditlər üzrə faizlər və investisiya layihələrinin dəyəri "Azərbaycan Biznesinin İnkişafı Fondu" ASC tərəfindən subsidiyalaşdırılacaq: "Eyni zamanda, heyvandarlıq təsərrüfatlarındakı heyvanların birdəfəlik identifikasiyası dövlət büdcəsi hesabına aparılaraq elektron sistemlərə daxil ediləcək, təsərrüfatların su təminatının təkmilləşdirilməsi təmin olunacaq. Fermerlərin bu yeniliklərin real nəticələrini nə vaxt hiss edəcəyi ilk növbədə həyata keçiriləcək pilot layihələrin effektivliyindən asılıdır. Düzgün icra mexanizmi təmin olunarsa, 2030-cu ilə qədər həm yerli kənd təsərrüfatı məhsullarımızın çeşidini, həm də ixrac bazarlarının coğrafiyasını əhəmiyyətli dərəcədə genişləndirmək mümkün olacaq".



Rauf Qarayev

İqtisadçının fikrincə, hazırda Azərbaycanda orqanik istehsalın inkişafına mane olan bir sıra obyektiv amillər mövcuddur. Torpaqların şoranlaşması, dəyişkən hava şəraiti, qəfil leysanlar, sel suları və külək axınları qeyri-kimyəvi vasitələrlə məhsul yetişdirməyi xeyli çətinləşdirir: "Dünya təcrübəsində bu problemlərin texnoloji həlləri mövcuddur".

# TULLANTILARIN İDARƏ EDİLMƏSİNDƏ NÖVBƏTİ MƏRHƏLƏ

**2027–2030-cu illəri əhatə edəcək yeni Milli Strategiya tullantıların idarə olunmasında köklü dəyişikliklər vəd edir. Ekspertlər hesab edirlər ki, xüsusilə regionlarda çeşidlənmə sisteminin qurulması və təhlükəli tullantılara nəzarət əsas hədəf olmalıdır.**



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az



Azərbaycanda ekoloji təhlükəsizliyin təmini və tullantı idarəçiliyi sahəsində tamamilə yeni mərhələ başlayır. Prezident İlham Əliyevin müvafiq fərmanı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi yanında Tullantıların İdarə Edilməsi üzrə Dövlət Agentliyinin yaradılması, eləcə də Nazirlər Kabinetinə "Bərk məişət tullantılarının idarə edilməsinin təkmilləşdirilməsinə dair 2027–2030-cu illər üçün Milli Strategiya" layihəsinin hazırlanması üçün beş ay vaxt verilməsi mövcud sistemdə köklü islahatların anonsudur. Bəs qəbul ediləcək yeni strategiyada konkret olaraq nələr əksini tapmalıdır? Hazırda Azərbaycanda tullantı idarəçiliyini ləngidən əsas problem nədir və xüsusilə regionlarda, su hövzələrində ən böyük ekoloji riski hansı tullantılar formalaşdırır?

**"MƏİŞƏT TULLANTILARI QARIŞIQ ŞƏKİLDƏ TOPLANIR"**

"Eko Monitorinq" Mərkəzinin direktoru Kənan Kərimlinin sözlərinə görə, Azərbaycanda tullantı idarəçiliyinin səmərəsizliyi ilk növbədə mənbədə çeşidlənmənin aparılmaması və idarəetmənin tam şəkildə vahid, effektiv sistem üzərində qurulmaması ilə bağlıdır: "Hazırda bir çox ərazidə məişət tullantıları qarışıq şəkildə toplanır ki, bunun da nəticəsində təkrar emal potensialı itirilir və tullantıların böyük hissəsi birbaşa poliqonlara yönəlir. Xüsusilə Bakıdan kənarda, rayon və kənd yerlərində vəziyyət daha qabarıqdır. İnfrastrukturun zəifliyi - konteyner çatışmazlığı, köhnə daşıma texnikası, qeyri-rəsmi tullantı sahələri və logistika problemləri əhalinin tullantını düzgün təhvil verməsini çətinləşdirir. Nəticədə məişət tullantıları açıq ərazilərə, çay kənarlarına atılır və ya ən sadə çıxış yolu kimi həyətlərdə yandırılır. Bu mənzərə insan sağlamlığı üçün də ciddi risklər yaradır. Bu sahədə ən böyük təhlükəni tibbi və elektron tullantılar, batareyalar, işlənmiş yağlar, kimyəvi maddələr, pestisid qalıqları və sənaye tullantıları formalaşdırır. Həmin materiallar düzgün idarə olunmadıqda yeraltı sular və hava üçün uzunmüddətli çirklənmə mənbəyinə çevrilir. Məhz buna görə təhlükəli tullantıların yaratdığı risklərə qabaqlayıcı yanaşma tətbiq edilməli, ayrıca toplama, ciddi nəzarət və təhlükəsiz utilizasiya mexanizmləri işə salınmalıdır".

## "Toplama-daşınma sisteminin qurulması mütləqdir"

K.Kərimlinin fikrincə, Milli Strategiya sadəcə tullantının toplanması və daşınması ilə məhdudlaşmamalıdır. Ekoloji idarəetmədə ən vacib dəyişiklik köhnəlmiş "topla və apar" modelindən dairəvi iqtisadiyyata əsaslanan "azalt, ayır, təkrar emal et" modelinə keçid olmalıdır: "Yalnız poliqonlara yönələn yanaşma uzunmüddətli həll sayılmır. Əsas hədəflərdən biri tullantının elə yarandığı nöqtədə - evdə, ofisdə, müəssisə və istehsalat sahəsində çeşidlənməsidir. Hər bir ailədə bu vərdiş formalaşdırılmalı, iri təşkilatlarda isə tullantıların düzgün ayrılması üçün xüsusi məsul şəxslər müəyyən edilməli, həmçinin qablaşdırma və elektronika sahəsində istehsalçı məsuliyyəti artırılmalıdır. Yeni sənəddə regionlarda idarəetmə bərabərliyinin təmini prioritet istiqamətlərdən biri kimi nəzərdə tutulmalıdır. Təkcə iri şəhərlərdə deyil, rayon və qəsəbələrdə də alçatan toplama-daşınma sisteminin qurulması mütləqdir. Bununla paralel olaraq, birdəfəlik plastiklərin istifadəsinin azaldılması, qeyri-qanuni poliqonların ləğvi, çirklənmiş sahələrin rekultivasiyası və tullantıların yaranmasından utilizasiyasına qədər vahid rəqəmsal izləmə sisteminin qurulması həyata keçirilməlidir".







## "Strategiya yeni mərhələnin başlanğıcı olacaq"

"Ekoloq Ətraf Mühitin Qorunmasına Yardım" İctimai Birliyin sədri Aynurə Miriyeva da düşünür ki, Azərbaycanda məişət tullantılarının idarə olunması son illərdə ən ciddi ekoloji və sosial problemlərdən birinə çevrilib: "Xüsusilə regionlarda müşahidə olunan vəziyyət mövcud idarəetmə modelinin artıq müasir ekoloji çağırışlara tam cavab vermədiyini göstərir. Bu baxımdan, Milli Strategiyanın hazırlanması bu sahədə yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir".

A.Miriyevanın sözlərinə görə, mövzunun aktuallığını artıran əsas məqamlardan biri regionlarda aparılan monitorinqlərin nəticələridir: "Saatlı və İmişli rayonlarında aparılan tədqiqatlar ciddi idarəetmə boşluqlarını üzə çıxarıb. Saatlıda tullantı poliqonu inşa edilsə də, mövcud infrastruktur hələ də yetərli deyil. Ərazidə qismən çeşidlənmə aparılmasına baxmayaraq, geniş sahələrin qarışıq tullantılarla örtülməsi mövcud ekoloji riskləri daha da artırır. Ən təhlükəli məqamlardan biri tullantıların yaşayış məntəqələrinə və Araz çayı hövzəsinə yaxın ərazilərdə yerləşdirilməsidir. Ölkədə tullantı idarəçiliyinin ən böyük problemi mənbədə çeşidlənmə sisteminin zəif olmasıdır. Məişət tullantıları plastik, şüşə, kağız və üzvi qalıqlar üzrə ayrılmadan eyni konteynerlərə atılır ki, bunun da nəticəsində təkrar emal imkanları sıfıra enir və bütün yük yenidən poliqonların üzərinə düşür".

**"CİDDİ NƏZARƏT MEXANİZMLƏRİNİN TƏTBİQİ VACİBDİR"**

Müsahibimizin fikrincə, yeni sənəd yalnız tullantıların daşınması və poliqonların yaradılması ilə məhdudlaşmamalıdır. Sənəd tullantıların azaldılması, çeşidlənməsi, təkrar emalı və dairəvi iqtisadiyyat prinsiplərini özündə geniş şəkildə ehtiva etməlidir: "Yeni Milli Strategiyada bir sıra konseptual istiqamətlər prioritet təşkil etməlidir. İlk növbədə mənbədə tullantıların çeşidlənməsi sisteminin yaradılması, regionlarda müasir çeşidləmə və təkrar emal müəssisələrinin qurulması əsas şərtdir. Bununla yanaşı, açıq tullantı yandırılmasının qəti şəkildə qadağan olunması və ciddi nəzarət mexanizmlərinin tətbiqi, habelə bələdiyyələrin və yerli icra strukturlarının məsuliyyətinin artırılması təmin edilməlidir. Prosesin ayrılmaz hissəsi kimi əhalinin ekoloji maarifləndirilməsi, tullantıların azaldılması və təkrar istifadəyə təşviq mexanizmlərinin hazırlanması, yekunda isə dairəvi iqtisadiyyat modelinə tam keçidin təmin olunması nəzərdə tutulmalıdır".

# TURİZMDƏ İNKİŞAFI ƏNGƏLLƏYƏN ƏSAS SƏBƏBLƏR

2025-ci ilin yekunlarına əsasən, Azərbaycanın turizm sektorunda inkişaf proqnozlardan geri qalıb. Statistika proqnozlarla faktiki nəticələr arasındakı ciddi fərqi üzə çıxarıb.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Turizm və ictimai iaşə sektoru son illərdə Azərbaycanın qeyri-neft iqtisadiyyatının əsas hərəkətverici sahələrindən biri kimi qiymətləndirilsə də, 2025-ci ilin nəticələri bu istiqamətdə gözləntilərlə reallıq arasında müəyyən fərqin olduğunu göstərir. Hesablama Palatasının qiymətləndirməsinə görə, sektor ötən ili 8,5 faiz real artımla başa vurub, amma bu göstərici həm ilkin, həm də sonradan yenilənmiş proqnozlardan geri qalıb.

Mütəxəssislər hesab edirlər ki, nəticələr bir tərəfdən sahədə müsbət dinamikanın davam etdiyini təsdiqləsə də, digər tərəfdən turizm potensialının tam reallaşdırılmasına mane olan amillərin hələ də qalmaqda olduğunu ortaya çıxarır.

Xatırladaq ki, may ayında Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən İqtisadi Şuranın iclasının gündəliyində də Azərbaycanda turizm sahəsindəki mövcud vəziyyət, problemlər və inkişaf perspektivləri, turizm bazarının genişləndirilməsi və turizmin inkişafı istiqamətində əsas prioritet tədbirlər və cari iqtisadi məsələlər daxil edilib və ətraflı müzakirə olunub.

Bəs proqnozlarla faktiki nəticələr arasındakı fərq hansı səbəblərdən yaranıb?

### "TURİSTLƏR BAŞQA ÖLKƏLƏRİ SEÇMƏYİ ÜSTÜN TUTURLAR"

İqtisadçı-ekspert Elmir Səfərlinin fikrincə, turizmdə artım tempinin aşağı düşməsinin əsas səbəblərindən biri ölkəmizdə təyyarə biletlərinin baha olması ilə bağlıdır: "Təyyarə biletləri baha olduğundan xaricdən ölkəmizə gələn turistlərin sayı azalıb. Turizm məhsulları, xidmətlər, ərzaq məhsulları ötən illərlə müqayisədə kəskin şəkildə artdığı üçün hər bir turistin xərclədiyi məbləğ də artır. Ona görə turistlər başqa ölkələri seçməyi üstün tuturlar".






Foto: Tapdıq Abdullayev/Global Photostock

### "BÜTÜN HOTELLƏR, MƏİŞƏT-İAŞƏ OBYEKTLƏRİ 4-5 ULDUZA UYĞUN TİKİLİR"

İqtisadçı artıma mane olan daxili faktorların olduğunu da bildirir: "Problem hotellərin, məişət-iaşə obyektlərinin qiymətlərinin baha olması, satınalma gücünə uyğun olmayan qiymətlərin formalaşmasıdır. Bütün hotellər, məişət-iaşə obyektləri 4-5 ulduza uyğun tikilir. Aşağı seqmentasiyada olan obyektlərin tikilməsi bizim sahibkarlar tərəfindən realizə olunmur. Ona görə də müəyyən seqment insanlar var ki, onların daxili turizmdə istirahət etməsi uyğun görünmür". Ekspertin fikrincə, turizmdə artımın olmaması hava şəraiti ilə də bağlı ola bilər: "Qış turizmi üçün qar olmaması, yayda dəniz mövsümündə havaların sərin keçməsi turist sayına təsir edir". İqtisadçının fikrincə, bölgələrdə yerləşən turizm obyektlərinə xüsusi vergi güzəştləri olmalıdır: "Nəticədə onlar da müəyyən qiymətləri aşağı salmaq imkanına malik olacaqlar. Müəyyən müddətdən sonra xidmət səviyyəsi artdığı üçün turizmin də daha sürətlə inkişaf etdiyini görə bilərik. Xüsusən hotel, məişət-iaşə obyektlərində bu sahədə təhsil almış mütəxəssislərin sayı azdır. Xarici ölkələrdə çalışan personallar hamısı təlimləndirilib. Bizdə bu cür peşə təlimləri həyata keçirilmir. Bu da turist sayına təsir edir".

### "TURİZM TƏKCƏ REGİONLARIN TƏBİƏTİ İLƏ MƏHDUDLAŞMAMALIDIR"

İqtisadçı bildirir ki, turizm təkcə regionların təbiəti ilə məhdudlaşmamalıdır. Turistlərə tarixi yerlər, incəsənət, musiqi, muzey, idman, sağlamlıq, elmi-mədəni və s. turizm də təklif edilməlidir: "Bu gün Naftalan sağlamlıq turizmi yetərli qədər potensiala malikdir. Amma xaricdən ora nə qədər turist cəlb edə bilirik? Bu, sual altındadır. Hər bir regionun xüsusiyyətlərinə xas turizm qurmaq mümkündür. O cümlədən, işğaldan azad olunan torpaqlarımızda turizmi inkişaf etdirmək, vahid işğal muzeyi yaratmaq olar". E.Səfərli hesab edir ki, konkret artıma nail olmaq üçün turizmin strateji planı olmalıdır: "Dövlət Turizm Agentliyi və bu istiqamətdə fəaliyyət göstərən qurumların turizmin inkişafına dair strateji yol xəritəsi formalaşmalıdır. Buna əsasən, harada əskiklik varsa, aradan qaldırılmalıdır. Əks halda, turizmin inkişafından söhbət gedə bilməz".



### "BU ZƏRƏRDƏN AZƏRBAYCANA DA PAY DÜŞÜR"

Turizmçi Rəhman Quliyevin fikrincə, dünyada baş verən geosiyasi dəyişikliklər, hərbi münaqişələr Azərbaycanda turist axınına da ciddi təsir göstərməkdə davam edir: "Dünya Turizm Şurasının açıqlamasına görə, körfəz müharibəsi dövründə beynəlxalq turizmə hər gün 600 milyarddan çox zərər dəyir. Təbii ki, bu zərərdən Azərbaycana da pay düşür. Nəzərə alsaq ki, ölkəmizə gələn turistlərin əksəriyyəti körfəz ölkələrindən - Səudiyyə Ərəbistanı, Qətər, Oman və digər ölkələrdən gəlir və ölkəmizə Asiyadan gələn turistlər körfəz ölkələri səmasından keçərək uçurlar, onda vəziyyət təsəvvür etmək çətin deyil. Aviareyslərin məhdud fəaliyyəti, hava limanlarının bağlanması turist axınına ciddi zərər vurur. Hava məkanlarının bağlı olması Asiyadan gələn aviareyslərin yolunu daha da uzadır və bu da əlavə xərclərin yaranmasına, biletlərin bahalaşmasına səbəb olur. Bu da özünü turistlərin hesab-fakturasında göstərir". Ekspert hesab edir ki, xaricdən gələn turistlərin azalması yerli daxili turizmin inkişafı üçün münbit şərait yaradır: "Biz statistikanı əsas götürməməliyik. Bəzən rəqəmlərdə də müəyyən yanlışlıqlar ola bilər. Yerli turistlər bölgələrə kütləvi surətdə axın edirlər. Bu zaman kənd turizmi də inkişaf edir. Bu gün regionlara gedən turistlərin 30 faizi yerli sakinlərin evini icarəyə götürür. Amma bunun statistikası aparılmır. Bu, əslində artımdır və turizmdə canlanmadır".



# MOPEDLƏRLƏ BAĞLI QAYDALAR DƏYİŞİR



"Yol hərəkəti haqqında" qanunda dəyişiklik edilir. Əsas məqsəd mopedlərlə bağlı qanunvericilikdəki boşluqları aradan qaldırmaq və bu istiqamətdə hüquqi çərçivəni müəyyənləşdirməkdir.

"Yol hərəkəti haqqında" qanunda dəyişiklik edilməsi barədə" 2025-ci il 9 dekabr tarixli 307-VIIQD nömrəli qanunun icrası ilə əlaqədar bəzi qanunlara dəyişiklik edilir. Bununla bağlı qanun layihəsi Milli Məclisin iyunun 19-da keçirilən iclasının gündəliyinə daxil edilib.

### DÖVLƏT QEYDİYYAT NİŞANI TƏLƏB OLUNUR

Qeyd edilib ki, həmin qanunla yol hərəkəti iştirakçılarının təhlükəsizliyinin təmin olunması, mopedlərin iştirakı ilə baş verə biləcək qəza hallarının qarşısının alınması və bu sahədə tənzimləmənin yaradılması məqsədilə mopedlərin müvafiq icra hakimiyyəti orqanında dövlət qeydiyyatından keçirilərək uçota alınması və bunun əsasında onlara dövlət qeydiyyat nişanının verilməsi, habelə mopedlərin sürücülük vəsiqəsi əsasında idarə olunması müəyyən olunub. Bununla da nəqliyyat vasitəsi sürücüləri üçün nəzərdə tutulmuş bir sıra vəzifələr moped sürücülərinə də şamil olunacaq. Beləliklə, mopedi idarə etmək üçün "A1" kateqoriyalı sürücülük vəsiqəsi, nəqliyyat vasitəsinin qeydiyyat şəhadətnaməsi və dövlət qeydiyyat nişanı tələb olunur.

### RÜSUMLAR MÜƏYYƏNLƏŞDİRİLƏCƏK

Təklif olunan dəyişiklik uyğunlaşdırma çərçivəsində adıçəkilən qanundan irəli gələrək mopedlərin texniki baxışdan keçirilməsinə, dövlət qeydiyyatına alınmasına, sürücülük vəsiqəsinin verilməsi üçün imtahanların qəbuluna, sürücülük vəsiqəsinin verilməsi və ya sürücülük vəsiqəsinin dəyişdirilməsinə və dövlət qeydiyyat nişanlarının verilməsinə görə dövlət rüsumunun dərəcələrinin qüvvədə olan dövlət rüsumları məbləğində tənzimlənməsini, eləcə də qeydiyyatdan keçmiş mopedlərin istifadəsi ilə bağlı üçüncü şəxslər qarşısında mülki məsuliyyətin icbari sığortasını nəzərdə tutur.

Məlumat üçün bildirilib ki, moped kiçik elektrik nəqliyyat vasitələri istisna olmaqla elektrik mühərriki olan və ya iş həcmi 50 kub santimetrdən çox olmayan mühərriklə hərəkətə gətirilən və maksimum konstruksiya sürəti saatda 50 kilometrdən yüksək olmayan iki və ya üçtəkərli nəqliyyat vasitəsidir. Müzakirələrdən sonra qanun layihəsi birinci oxunuşda təsdiqlənib.

# UTİLİZASİYAYA VERİLƏN AVTOMOBİLLƏRİN SAYI AÇIQLANIB

Ölkəmizdə 2024-cü ildə 1966, 2025-ci ildə 19 min 840, 2026-cı ilin ötən dövründə isə 13 min 330 nəqliyyat vasitəsi utilizasiya üçün təhvil verilib.

Bu barədə Abşeron rayonu ərazisində yerləşən nəqliyyat vasitələrinin utilizasiyası məntəqəsinə təşkil olunan mediatur çərçivəsində jurnalistlərə açıqlamasında Baş Dövlət Yol Polisi İdarəsinin Avtotexniki müfəttişlik şöbəsinin dövlət avtomobil müfəttişi Aslan Hacıyev məlumat verib. O bildirib ki, həmin nəqliyyat vasitələri qeydiyyatdan çıxarılıb və indiyə qədər onlardan 30 mini utilizasiya olunub.

Aslan Hacıyev deyib ki, utilizasiya proqramı köhnə və texniki cəhətdən yararsız nəqliyyat vasitələrinin dövriyyədən çıxarılması yolu ilə həm yol hərəkəti təhlükəsizliyinin yüksəldilməsinə, həm də ətraf mühitə atılan zərərli tullantıların azaldılmasına mühüm töhfə verir. O bildirib ki, köhnə nəqliyyat vasitələrinin utilizasiyası yol hərəkəti təhlükəsizliyinin artırılmasına, texniki nasaz nəqliyyat vasitələrinin yollardan uzaqlaşdırılmasına, atmosferə atılan zərərli qaz və tullantıların azaldılmasına, ətraf mühitin qorunmasına, avtomobil parkının yenilənməsinə kömək edir.




# SOCAR və ICD arasında memorandum imzalanıb

İslam İnkişaf Bankı (İİB) qrupunun illik toplantıları çərçivəsində Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) ilə İslam İnkişaf Bankı Qrupunun Özəl Sektorun İnkişafı üzrə İslam Korporasiyası (ICD) arasında Anlaşma Memorandumu imzalanıb. Bu barədə "Report"a SOCAR-dan məlumat verilib.

Bildirilib ki, sənəd Azərbaycanda və ICD-yə üzv digər ölkələrdə dövlət-özəl tərəfdaşlığı layihələri üzrə maliyyələşdirmə imkanlarının birgə araşdırılmasını nəzərdə tutur.

Anlaşma Memorandumuna əsasən, tərəflər SOCAR-ın və onun birgə müəssisə tərəfdaşları tərəfindən təsis olunan layihə şirkətləri üçün maliyyələşdirmə imkanlarını müəyyənləşdirəcək və qiymətləndirəcəklər. Bu çərçivədə ICD tərəfindən layihələrin xüsusiyyətlərinə uyğun maliyyə həlləri təklif ediləcək.

SOCAR-ın prezidenti Rövşən Nəcəf bildirib ki, Anlaşma Memorandumu tərəflər arasında enerji layihələri üzrə gələcək əməkdaşlığın inkişafı üçün mühüm imkanlar açır: "Sənəd Azərbaycanda və ICD-yə üzv digər ölkələrdə həyata keçirilə biləcək layihələr üzrə birgə işləmək, uyğun maliyyə mexanizmlərini nəzərdən keçirmək və istiqamətləri müəyyənləşdirmək baxımından əhəmiyyət daşıyır".

ICD-nin icraçı baş direktorunun səlahiyyətlərini müvəqqəti icra edən Xalid Xələfalla isə qeyd edib ki, SOCAR ilə yeni tərəfdaşlıq ICD-nin üzv ölkələrə özəl kapitalın yönləndirilməsi məqsədi daşıyan strategiyasının həyata keçirilməsi baxımından mühüm addımdır: "SOCAR-ın enerji sahəsindəki təcrübəsini ICD-nin şəriət prinsiplərinə uyğun maliyyələşdirmə imkanları ilə birləşdirərək, Azərbaycan və digər ölkələrdə iqtisadi artımı təşviq edəcək dövlət-özəl tərəfdaşlığı layihələrinin inkişafına töhfə veririk. Bu əməkdaşlıq İslam İnkişaf Bankı Qrupunun inkişaf prioritetlərinə tam uyğundur".

Kaspi ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Samirə Əliyeva**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 801
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

# GƏNCLƏR REGİONLARA QAYITMAYANDA

Ali təhsilli əhalinin regionlar üzrə paylanması statistikası həyəcan təbili çalır. Zaman keçdikcə Bakı ilə regionlar arasındakı fərq daha da artır. Mütəxəssislər bunun təbii proses olduğunu bildirir, amma qabaqlayıcı tədbirlərin görülməsinə də ehtiyac olduğunu vurğulayırlar.



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az




Ölkəmizdə ali təhsilli əhalinin regionlar üzrə paylanması diqqət çəkən fərqləri ortaya qoyur. Aparılan təhlillər göstərir ki, ali təhsilli şəxslərin ən yüksək payı paytaxt Bakının rayonlarında qeydə alınır. Bir sıra bölgələrdə isə bu göstərici ölkə ortalamasından xeyli aşağıdır. Məlumatlar ölkədə təhsil imkanları, əmək bazarı və daxili miqrasiya prosesləri arasında əlaqələri üzə çıxarır.

### "GƏNCLƏR REGİONLARA QAYITMAQ İSTƏMİRLƏR"

Milli Məclisin Elm və təhsil komitəsinin üzvü Ceyhun Məmmədov bu fərqin çox ciddi olduğunu narahatlıqla qeyd edir: "Fərqlər özünü ciddi şəkildə göstərir və narahatlıq yaratmaqdadır. Hesab edirəm ki, gənclərin daha çox paytaxt və iri şəhərlərə meyl etməsi bu proseslərə ciddi şəkildə təsir göstərir. Gənclər regionlara qayıtmaq istəmirlər".

Millət vəkilinin sözlərinə görə, bu prosesə təsir edən məqamlardan biri də regionlarda aparılan optimallaşma, məktəblərin bağlanmasıdır: "Bu da prosesə öz təsirini göstərir və gələcəkdə daha çox göstərəcək. Hesab edirəm ki, region məktəblərində ciddi zərurət olmadan optimallaşma aparılmasının qarşısı alınmalıdır. Bu məsələdə daha ehtiyatlı olmalıyıq".



Ceyhun Məmmədov



Günay Əkbərova

Fotolar: Rüfət Mikayılov - Global Photostock

## "Harada iqtisadi inkişaf varsa, orada güclü təhsil də var"

İqtisadçı Eldəniz Əmirovun sözlərinə görə, dünyanın elə bir ölkəsi yoxdur ki, orada ali təhsilli insanlar regionlar üzrə bərabər paylaşılsınlar: "İstər ölkədə, istərsə də ümumi planetdə ali təhsilin səviyyəsi o yerdə yüksəkdir ki, orada iqtisadiyyat inkişaf edib. Dünyanın inkişaf etmiş ölkələrini bir və top universitetlərini digər bir A4 vərəqinə yazsaq görərik ki, ölkələr təxminən sinxron gedir, yəni harada iqtisadi inkişaf varsa, orada güclü təhsil də var. Eyni məntiq ölkə daxilindəki şəhərlər üçün də keçərlidir. Bu gün Azərbaycan iqtisadiyyatının böyük hissəsi Bakıda cəmlənib. Eyni zamanda, ali təhsil müəssisələri, əyləncə mərkəzləri, səhiyyə, xidmətlər və digər infrastrukturlar da".

E.Əmirov bildirir ki, iqtisadi inkişafın regionlarla müqayisədə Bakıda yüksək olması miqrasiyanı artırır: "Bakıda oxuyanların əksəriyyəti paytaxtda da qalır. Statistikadan da görürük ki, ölkədə iş yerlərinin çoxu Bakıda açılır. Bu, artıq bir çox sualın cavabıdır. İqtisadi aktiv həyat miqrasiyanı sürətləndirir. Bunun da məntiqi nəticəsi olaraq ali təhsilli əhalinin ölkə üzrə paylanması qeyri-bərabər olur".



Eldəniz Əmirov

## "Təhsil məqsədli miqrasiya dünyanın əksər ölkələrində var"

Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü Günay Əkbərovanın fikrincə, Bakı ilə regionlar arasındakı fərqin səbəbini yalnız təhsil imkanları ilə izah etmək doğru olmaz: "Burada təhsil, iqtisadi inkişaf səviyyəsi, əmək bazarı, daxili miqrasiya prosesləri birlikdə rol oynayır. Ali təhsil müəssisələrinin böyük hissəsi paytaxtda cəmləşib. Bu da gənclərin əhəmiyyətli qisminin Bakıya üz tutmasına səbəb olub. Lakin məsələ təkcə universitetə qəbul olmaqla bitmir. Əsas sual ondan ibarətdir ki, gənclər məzun olduqdan sonra harada yaşayır və işləyirlər. Təcrübə göstərir ki, böyük şəhərlərə gələn gənclərin əhəmiyyətli hissəsi sonradan geri qayıtmır. Bunun da əsas səbəbi iş imkanlarının, karyera perspektivlərinin və peşəkar inkişaf mühitinin daha çox paytaxtda cəmləşməsidir".

G.Əkbərovanın sözlərinə görə, bu gün gənclər yalnız diplom almaq üçün deyil, gələcək həyatlarını qurmaq üçün də Bakını seçirlər: "Burada əmək bazarı daha genişdir, müxtəlif sahələr üzrə vakansiyalar daha çoxdur, beynəlxalq layihələrə qoşulmaq, peşəkar şəbəkə formalaşdırmaq imkanları daha əlçatandır". İŞ üzvü bu məsələyə yalnız problem kimi də baxmır: "Çünki urbanizasiya və təhsil məqsədli miqrasiya dünyanın əksər ölkələrində müşahidə olunan təbii prosesdir. Məsələn, Almaniya, Fransa, Böyük Britaniya və digər inkişaf etmiş ölkələrdə də ali təhsilli insanların böyük hissəsi iqtisadi mərkəzlərdə cəmləşir. Fərq ondadır ki, həmin ölkələr regionların inkişafına paralel investisiyalar yatıraraq bu fərqi minimum səviyyədə saxlamağa çalışırlar".

### "REGİONLARDAKI UNİVERSİTETLƏR DƏ MÜSBƏT ROL OYNAYA BİLƏR"

G.Əkbərova hesab edir ki, ali təhsilli əhalinin regionlar üzrə daha balanslı paylanması üçün ilk növbədə regionlarda yüksək ixtisas tələb edən iş yerlərinin sayı artırılmalıdır: "Çünki heç bir gənc yalnız vətənpərvərlik hissi ilə uzun müddət işləməyəcək. İnsan öz peşəsinə uyğun iş tapmalı, inkişaf etməli və layiqli gəlir əldə etməlidir. Əgər regionlarda müəllim, mühəndis, proqramçı, həkim, turizm mütəxəssisi və digər peşə sahibləri üçün real karyera imkanları yaradılarsa, gənclərin geri dönüşü də artacaq". G.Əkbərova hesab edir ki, region universitetlərinin inkişafı da bu məsələdə müsbət rol oynaya bilər: "Son illərdə bu istiqamətdə müsbət addımlar atılır. Dünyanın bir çox ölkəsində regional universitetlər yerli iqtisadiyyatın inkişafında aparıcı rol oynayır. Azərbaycanda da bu model daha da gücləndirilə bilər. Bununla yanaşı, rəqəmsallaşma yeni imkanlar yaradır. Uzaqdan iş imkanlarının genişlənməsi, rəqəmsal bacarıqların inkişafı və regionlarda internet infrastrukturunun gücləndirilməsi ali təhsilli gənclərin öz bölgələrində yaşayaraq beynəlxalq əmək bazarına çıxışını təmin edə bilər. Mənim fikrimcə, təhsil siyasəti ilə regional inkişaf siyasəti bir-birini tamamladıqda, ali təhsilli əhalinin bölgələr üzrə daha balanslı paylanmasına və insan kapitalının daha səmərəli istifadəsinə nail olmaq mümkün olacaq".

# KRİPTOVALYUTA BAZARINDA DALĞALANMA

“Bitcoin”in ucuzlaşmasının səbəbləri ilə bağlı müxtəlif fikirlər səslənir. Bəzi ekspertlər bunu bazarda normal qiymət düzəlişi kimi dəyərləndirir, digərləri isə qlobal iqtisadi amillərin təsirinə diqqət çəkir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az




“Bitcoin”in qiymətində son günlər baş verən eniş kriptovalyuta bazarında yenidən müzakirələrə səbəb olub. Rəqəmsal aktivlərə yatırım edən şəxslər qiymətlərin daha da aşağı düşüb-düşməyəcəyi ilə bağlı narahatlıq keçirirlər. Son həftələrdə qeydə alınan qiymət itkisi bazarın gələcək istiqaməti ilə bağlı sualları artırıb. Bəs “Bitcoin” niyə ucuzlaşır və qarşıdakı dövrdə investorları nə gözləyir?

Məlumat üçün bildirək ki, iyunun ilk günlərində “Bitcoin”in qiyməti qısa müddətə 61 351 dollara qədər geriləyib. Bu enişlə son ayların ən böyük satış dalğalarından biri reallaşıb. Bazarda 1,6 milyard dollardan çox həcmdə mövqe məcburi şəkildə bağlanıb.

### İQTİSADİ VƏ GEOSİYASİ AMİLLƏR

“Crypto Consulting” MMC-nin direktoru Elnur Quliyev “Kaspi” qəzetinə açıqlamasında bildirdi ki, “Bitcoin”in ucuzlaşması bir neçə amilin eyni vaxtda təsiri nəticəsində formalaşıb: “Kriptovalyuta bazarındakı enişin arxasında həm iqtisadi, həm də geosiyasi amillər dayanır. Ən mühüm səbəblərdən biri ABŞ-da fəaliyyət göstərən spot Bitcoin ETF-lərindən rekord həcmdə vəsait çıxışlarının qeydə alınmasıdır. İyun ayının ilk yarısında ETF-lərdən təxminən 4,4 milyard dollar vəsait çıxıb ki, bu da məhsulların istifadəyə verildiyi 2024-cü ildən bəri ən böyük çıxış göstəricilərindən hesab olunur. Nəticədə ETF-lərin idarə etdiyi aktivlərin həcmi 104 milyard dollardan 83 milyard dollara qədər azalıb. Praktik nümunə kimi qeyd etmək olar ki, “Bitcoin” 2026-cı ilin əvvəlində 96-98 min dollar intervalında ticarət olunduğu halda, iyun ayında 60-65 min dollar diapazonuna qədər geriləndi. Bu isə zirvədən təxminən 35-40 faiz aşağı qiymət deməkdir. Lakin “Bitcoin” tarixini analiz etdikdə görürük ki, bu cür enişlər əvvəllər də olub. Məsələn, 2013-cü ildə “Bitcoin” təxminən 75% dəyər itirmişdi. 2018-ci ildə eniş 84%-ə çatmışdı, 2022-ci ildə isə qiymət zirvədən 77% aşağı düşmüşdü. Bütün bu korreksiyalardan sonra “Bitcoin” sonrakı illərdə yeni tarixi maksimumlar formalaşdırmağı bacarmışdı. Əgər investor 2022-ci ilin sonlarında “Bitcoin”i 16 min dollardan almış və bazardakı qorxuya baxmayaraq satış etməmişdisə, 2025-ci ildə qiymətin 126 min dollara yaxınlaşması nəticəsində kapitalını təxminən 8 dəfəyə yaxın artıra bilmişdi. Bu nümunə göstərir ki, kriptovalyuta bazarında emosional qərarlar çox vaxt maliyyə itkilərinə səbəb olur”.

Mütəxəssis bildirir ki, hazırda bazara təsir edən ikinci böyük faktor geosiyasi risklərdir: “Son aylarda ABŞ-İran gərginliyi, Hörmüz boğazı ətrafında yaranan qeyri-müəyyənlik və neft qiymətlərindəki artım qlobal risk iştahasını azaldırdı. Lakin son günlər ABŞ və İran arasında əldə olunan ilkin razılaşma bazarlarda optimizmi artırıb. Faizlərin aşağı düşməsi həm səhm bazarı, həm də kriptovalyutalar üçün müsbət faktor hesab edilir. Məhz buna görə də ABŞ-İran razılaşması təkcə siyasi hadisə deyil, həm də kriptovalyuta bazarı üçün potensial müsbət makroiqtisadi siqnal kimi qiymətləndirilə bilər. Artıq bazarda ilkin reaksiyalar da müşahidə olunur. Son günlər “Bitcoin” 59 min dollar ətrafındakı minimum səviyyələrdən 65-66 min dollar diapazonuna qədər yüksəlib və bəzi günlərdə 10 faizdən artıq bərpa nümayiş etdirib. Bununla belə, risklər hələ də qalır”.


Elnur Quliyev

## “Bitcoin”ə olan uzunmüddətli tələb hələ də yüksək olaraq qalır”

Kriptovalyuta birjası “Binance”dən qəzetimizə verilən məlumata görə, hazırda ABŞ-da Bitcoin ETF-lərindən müəyyən vəsait çıxışları olsa da, “Bitcoin”ə olan uzunmüddətli tələb hələ də yüksək olaraq qalır: “Bazar məlumatlarına görə, 2024-cü ilin mart ayından etibarən ETF-lər 509 mindən çox “Bitcoin” toplayıb, “Strategy” şirkəti isə eyni dövrdə təxminən 651 min “Bitcoin” alıb. Ümumilikdə bu, bazarda 1,24 milyondan çox “Bitcoin”ə əlavə tələb yaradıb. Müqayisə üçün, hazırda bütün kriptovalyuta birjalarındakı ehtiyatlar təxminən 2,7 milyon “Bitcoin” təşkil edir. Bu rəqəmlər son illərdə iri investorların və şirkətlərin “Bitcoin”ə marağının miqyasını göstərir”.

## “Bu, böhran siqnalı deyil”

“CryptoQuant” CEO-su Yong Ju isə deyir ki hazırkı proses aktivin zəifləməsindən daha çox, “Bitcoin” ehtiyatlarının bazarın müxtəlif iştirakçıları arasında yenidən bölüşdürülməsi ilə bağlı ola bilər: “Erkən dövr investorlarından olan aktivlər yeni institusional investorların əlinə keçir”.

Əlavə təzyiq yaradan amillərdən biri də kapital uğrunda qlobal rəqabətdir. “Bitcoin”ə təzyiq göstərən digər amil isə investor kapitalının fərqli istiqamətlərə yönəlməsidir. “Binance Research”in təhlilinə görə, hazırda vəsaitlərin əhəmiyyətli hissəsi süni intellekt, yarımkeçirici istehsalı, müdafiə və enerji sektorlarına axır: “Bazarda kapitalın hansı sahələrdə cəmləndiyini göstərən CBOE dispersiya indeksinin yüksək səviyyəyə çatması da investorların məhdud sayda populyar istiqamətlərə üstünlük verdiyini göstərir. Belə şəraitdə “Bitcoin” və digər rəqəmsal aktivlərə yönələn maraq qısa müddət ərzində zəifləyə bilər. Məhz buna görə də hazırkı enişi ilk növbədə kriptosənayenin daxilində yaranan böhran kimi deyil, makroiqtisadi amillərin və kapital axınlarının dəyişməsinin nəticəsi kimi qiymətləndiririk”.

# AVTOMOBİL BAZARINDA SƏRT "ƏYLƏC"

Azərbaycana idxal olunan minik avtomobillərinin sayı kəskin şəkildə azalıb. Əsas səbəblər kimi kütləvi idxal nəticəsində anbarlarda alıcısını gözləyən nəqliyyat vasitələri, taksi parklarına tətbiq edilən yeni limitlər və istehlakçıların "ikinci əl" bazarına yönəlməsi göstərilir.



**ZƏRİF SALMANLI**
zarifsalmanli@kaspi.az

Avtomobil bazarında cari ilin ilk dörd ayının rəsmi statistikası sektor üçün olduqca ciddi dönüş mərhələsinin başladığını göstərir. Rəsmi məlumatlara əsasən, 2026-cı ilin yanvar-aprel ayları ərzində ölkəyə gətirilən avtomobil sayında azalma var. Ən nəzərəçarpan geriləmə minik avtomobilləri seqmentində qeydə alınıb. Belə ki, 2025-ci ilin ilk dörd ayında ölkəyə 30 824 minik avtomobili idxal edildiyi halda, bu ilin eyni dövründə sözügedən rəqəm 18 287-yə düşüb. Bu isə minik nəqliyyat vasitələrinin idxalında 12 537 ədəd, yəni 40,7%-lik azalma deməkdir.

### "BÖYÜK HƏCMDƏ AVTOMOBİL İDXAL EDİLİB"

Azərbaycan Avtomobil Dilerləri Assosiasiyasının sədri Eyyub Əliyevin sözlərinə görə, idxalın azalmasının bir neçə səbəbi var: "Əsas səbəblərdən biri ötən il tətbiq olunan güzəştlərin başa çatacağını əvvəlcədən bilən şəxslərin 2025-ci ilin son rübündə ölkəyə daha çox avtomobil gətirməsi ilə bağlıdır. Onlar güzəştlərin bitəcəyini nəzərə alaraq böyük həcmdə avtomobil idxal edib. Həmin avtomobillərin əhəmiyyətli hissəsi bu gün də satışdadır. Nəticədə, ötən ilin sonlarında həyata keçirilən yüksək idxal həcmi cari ilin idxal göstəricilərinə təsir edib və bazarın tələbatının bir hissəsini əvvəlcədən qarşılayıb". E.Əliyev bildirir ki, digər mühüm amil isə alıcıların davranışı ilə bağlıdır: "Yeni avtomobil almaq istəyənlərin bir qismi ilin ilk aylarında alış qərarını təxirə salır. Bunun səbəbi alıcıların istehsal ili cari ilə uyğun olan avtomobillərə üstünlük verməsidir. Çünki bu, gələcək satış zamanı avtomobilin dəyərinin qorunmasına müsbət təsir göstərir. Son illərdə qüvvədə olan güzəştlər bu tendensiyanı zəiflətsə də, artıq bazarda əvvəlki davranış modeli yenidən müşahidə olunur".

## "AVTOMOBİL GƏTİRMƏK SƏRF ETMİR"

Sədrin fikrincə, hazırda bazarda fərdi şəxslər tərəfindən gətirilmiş, rəsmi zəmanət və servis xidməti olmayan avtomobillərin bir qisminin hətta ötənilki qiymətlərdən daha aşağı qiymətə satıldığı müşahidə edilir: "Bu isə həmin avtomobillərə investisiya yatırmış şəxslərin gözlədikləri müddətdə və qiymətlə satış həyata keçirə bilmədiklərini göstərir. Əvvəllər idxal olunan avtomobillər qısa müddətdə, bəzən 10-15 gün ərzində satılırdısa, indi bəzi hallarda avtomobillər aylarla alıcı gözləyir. Bu vəziyyət investorların risklərini artırır və nəticədə onlar avtomobilləri daha aşağı qiymətlərlə satışa çıxarmağa məcbur olurlar".

### "SÖHBƏT DAHA ÇOX MÜVƏQQƏTİ DURĞUNLUQDAN GEDİR"

E.Əliyev qeyd edir ki, idxalın azalmasına təsir edən digər amil taksi parklarının yenilənməsi ilə bağlı tətbiq olunan məhdudiyyətlərdir. Taksi fəaliyyəti üçün nəzərdə tutulan kvotalar və limitlər səbəbindən əvvəlki illərlə müqayisədə bu istiqamətdə avtomobil idxalı da azalıb. Bununla belə, mövcud vəziyyətin uzunmüddətli xarakter daşıdığını söyləmək doğru olmaz: "İlin ikinci rübünün sonlarından etibarən idxal tempi yenidən artmağa başlayacaq. Bunun əsas səbəbi ölkənin avtomobil parkının yaşlı olmasıdır. Köhnə avtomobillər dövriyyədən çıxarıldıqca onların yerini yeni avtomobillər tutmalıdır. Bu baxımdan, hazırkı azalma bazar üçün faciəvi və ya kritik vəziyyət deyil. Söhbət daha çox müvəqqəti durğunluqdan gedir və bazarın yaxın dövrdə yenidən aktivləşəcəyi gözlənilir".

### "VƏTƏNDAŞLAR DAHA EHTİYATLI QƏRAR VERİRLƏR"

İqtisadçı Asif İbrahimovun sözlərinə görə, 40,7 faizlik azalma bazarda diqqətlə izlənilməsi vacib olan tendensiyadır. Lakin bu göstəricini avtomobilə olan marağın azalması kimi xarakterizə etmək doğru olmaz: "Mövcud vəziyyətin formalaşmasında iqtisadi, maliyyə və bazar amillərinin kompleks təsiri var. İlk növbədə nəzərə almaq lazımdır ki, son illərdə Azərbaycanda avtomobil idxalı rekord həddə çatmışdı. Xüsusilə 2023–2025-ci illərdə yeni və hibrid avtomobillərə olan yüksək tələbat bazarın müəyyən dərəcədə doyma mərhələsinə keçməsi ilə nəticələnib. Bu səbəbdən, əvvəlki illərdə müşahidə olunan yüksək idxal tempinin eyni sürətlə davam etməsi onsuz da gözlənilən deyildi".

A.İbrahimovun fikrincə, idxalın azalmasına təsir göstərən digər mühüm amil isə əhalinin alıcılıq qabiliyyəti ilə bağlıdır. Son dövrlərdə avtomobil qiymətlərində, kredit faizlərində, eləcə də sığorta və istismar xərclərində artım müşahidə olunur: "Bu isə vətəndaşları daha ehtiyatlı qərar verməyə, yeni avtomobil alışını təxirə salmağa və ya daha münasib qiymətli alternativlərə üstünlük verməyə vadar edir. Paralel olaraq, bazarda "ikinci əl" avtomobillərə marağın artması da geriləmənin əsas səbəblərindən biridir. Yeni avtomobillərin bahalaşması fonunda bir çox alıcı daha sərfəli seçim kimi işlənmiş nəqliyyat vasitələrinə yönəlir. Qeyd edək ki, bu tendensiya yalnız Azərbaycanda deyil, qlobal miqyasda da müşahidə olunur. Xarici amilləri də unutmaq olmaz. Qlobal avtomobil bazarında istehsalçıların qiymət siyasəti, logistika xərclərinin artması, valyuta məzənnələri, beynəlxalq daşıma tarifləri və təchizat zəncirindəki dəyişikliklər avtomobil idxalının həcminə birbaşa təsir göstərir. Eyni zamanda, bəzi istehsalçıların kütləvi şəkildə elektromobil və hibrid modellərə keçidi bazarda ciddi struktur dəyişiklikləri yaradır".



Eyyub Əliyev
Asif İbrahimov

## "UZUNMÜDDƏTLİ TENDENSİYA KİMİ QİYMƏTLƏNDİRMƏK TEZDİR"

İqtisadçı bildirir ki, hazırkı azalmanı hələlik uzunmüddətli tendensiya kimi qiymətləndirmək tezdir. Avtomobil bazarı mövsümi xarakter daşıyır və iqtisadi dəyişikliklərə qarşı olduqca həssasdır: "İlin ikinci yarısında kredit bazarındakı aktivlik, yeni modellərin satışa çıxarılması, stimullaşdırıcı kampaniyalar və istehlakçı davranışlarındakı müsbət dəyişikliklər vəziyyəti asanlıqla dəyişə bilər. Hazırkı azalma, əslində, bazarın yüksək artımdan sonra "normallaşma" mərhələsinə keçdiyini göstərir".



Foto: Sabir Məmmədov/Global Photostock

# ABORTLARLA BAĞLI QORXUNC STATİSTİKA

Azərbaycanda cinsi və reproduktiv sağlamlıq sahəsində irəliləyişlər olsa da, əhatə dairəsi balanslı deyil. Abortların azalması üçün maarifləndirmə ilə yanaşı, kontrasepsiyaya əlçatanlıq, keyfiyyətli reproduktiv sağlamlıq xidmətləri və sosial dəstək mexanizmləri də paralel şəkildə gücləndirilməlidir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az




Azərbaycanda abortların sayı rekord həddə çatıb. Rəsmi statistikaya görə, 2025-ci ildə ölkədə 95117 abort qeydə alınıb. Abortların 3178-i 18-19 yaş qrupunda, 66 abort isə 15-17 yaş qrupundadır. Abort etdirənlərin 27498-i 30-34 yaş, 26329-u 25-29 yaş, 22811-i isə 35 və yuxarı yaş qrupunda olan qadınlar olub. Əvvəlki illərə nəzər salsaq, abortların sayı 2021-ci ildə 46877, 2022-ci ildə 57999, 2023-cü ildə 73816, 2024-cü ildə isə 78245 olub.

### STEREOTİPLƏRİN YARATDIĞI MANEƏLƏR

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndəsi Rafiq Mahmudov "Kaspi" qəzetinə açıqlamasında bildirdi ki, abortların sayının artması ciddi təhlil olunur və fəaliyyət planlarında xüsusi nəzərə alınır: "Abortların ailə planlaşdırılması üsulu kimi istifadəsinin qarşısının alınması, ana ölümünün azaldılması və doğulacaq uşaqların sağlamlığının qorunması məqsədilə kompleks maarifləndirmə mexanizmləri icra olunur. Bu sahə bir tərəfdən tibbi xidmətlərin yaxşılaşdırılması ilə inkişaf etsə də, digər tərəfdən regional və mədəni stereotiplər səbəbindən müəyyən maneələrlə qarşılaşır. Ölkədə cinsi və reproduktiv sağlamlıq sahəsində əsasən Səhiyyə Nazirliyinin nəzdində fəaliyyət göstərən Ailə Planlaşdırılması Məsləhətxanaları fərdlərə hamiləliklərarası intervalın gözlənilməsi və arzuolunmaz hamiləliklərdən qorunma barədə məsləhətlər verir".

Komitə rəsmisi bildirir ki, ölkədə cinsi və reproduktiv sağlamlıq sahəsində irəliləyişlər olsa da, əhatə dairəsi balanslı deyil: "Paytaxt Bakı ilə regionlar arasında kəskin fərq var. Regionlarda cinsi maarifləndirmə mövzusu hələ də "tabu" olaraq qalır. Azərbaycanda rəsmi abortların sayı hələ də yüksəkdir və onların əhəmiyyətli hissəsi kontrasepsiya barədə məlumatsızlıqdan və ya gender stereotiplərindən qaynaqlanır. Həmçinin müasir və ənənəvi kontraseptiv vasitələrdən istifadə faizi digər Şərqi Avropa ölkələri ilə müqayisədə aşağıdır".

### "KONTRASEPTİV VASİTƏLƏR İCBARİ TİBBİ SIĞORTA ZƏRFİNƏ TAM DAXİL EDİLMƏYİB"

R.Mahmudovun sözlərinə görə, ailə planlaşdırılması sahəsində ən vacib addımlardan biri müasir kontraseptiv üsullara və vasitələrə əlçatanlığın təmin edilməsidir: "Sosial baxımdan həssas, aztəminatlı ailələrin və gənc anaların dövlət qadın məsləhətxanaları və ailə planlaşdırılması mərkəzləri tərəfindən pulsuz və ya güzəştli şərtlərlə kontraseptiv vasitələrlə təmin edilməsi mexanizmləri gücləndirilməlidir. Hazırda Azərbaycanda kontraseptiv vasitələr dövlət tərəfindən icbari tibbi sığorta zərfinə tam və kütləvi şəkildə daxil edilməyib. Beynəlxalq təcrübədən istifadə edərək, ölkəmizdə də bu mexanizmlərin tətbiq edilməsi mümkündür".

### "AİLƏDƏ AÇIQ VƏ MÜHAKİMƏSİZ ÜNSİYYƏT MÜHİTİ VACİBDİR"

Uzman ginekoloq Zivər Eldarova bildirir ki, planlaşdırılmamış hamiləliklərin əsas səbəbləri reproduktiv sağlamlıqla bağlı məlumat çatışmazlığı, kontrasepsiya üsullarından istifadə edilməməsi və ya onların düzgün tətbiq olunmamasıdır. Onun sözlərinə görə, bəzi hallarda "risk yoxdur" düşüncəsi, cinsi sağlamlıqla bağlı yanlış inanclar və qeyri-dəqiq məlumatlar da planlaşdırılmamış hamiləliklərin yaranmasında mühüm rol oynayır: "Digər vacib faktor isə ailə daxilində bu mövzuların açıq müzakirə olunmamasıdır. Valideyn-övlad münasibətlərində etibar və açıq kommunikasiya olmadıqda gənclər çox zaman düzgün məlumatı vaxtında əldə edə bilmir və alternativ, etibarsız mənbələrə yönəlir. Ümumi məlumatlılıq artsa da, kontrasepsiya və reproduktiv sağlamlıqla bağlı biliklərin böyük hissəsi elmi mənbələrdən deyil, sosial mühit və internetdən formalaşır. Bu isə yanlış təsəvvürlərin geniş yayılmasına səbəb olur. Xüsusilə gənclər bu baxımdan həssas qrupdur. Ailə daxilində etibarlı, açıq və mühakiməsiz ünsiyyət mühiti formalaşdırmaq xüsusi əhəmiyyət daşıyır".



Rafiq Mahmudov

## Həm qadının, həm də kişinin ortaq məsuliyyəti

Ginekoloqun sözlərinə görə, abort qərarı çoxfaktorlu məsələdir, yalnız tibbi və ya sosial səbəblərlə izah olunmur. Onun fikrincə, tibbi səbəblərə dölün ağır inkişaf qüsurları, genetik patologiyalar və ananın sağlamlığı üçün risk yaradan hallar daxildir. Sosial səbəblər isə əsasən iqtisadi çətinliklər, planlaşdırılmamış hamiləlik, ailə və münasibət problemləri, eləcə də sosial dəstəyin zəifliyi ilə bağlıdır: "Səhiyyə sistemində əsas boşluqlardan biri ailə planlaması xidmətlərinin bütün reproduktiv yaş qrupuna sistemli şəkildə çatdırılmamasıdır. Bir çox insan bu məlumatı yalnız hamiləlik yarandıqdan sonra əldə edir. Digər mühüm problem kontrasepsiya xidmətlərinin əlçatanlığı və maarifləndirmənin yalnız qadın üzərində fokuslanmasıdır. Ailə planlaması həm qadının, həm də kişinin ortaq məsuliyyətidir".



Zivər Eldarova

### "ABORT VAXTINDA VERİLMƏMİŞ QƏRARIN NƏTİCƏSİDİR"

Ginekoloq bildirir ki, abortların azalması üçün maarifləndirmə ilə yanaşı kontrasepsiyaya əlçatanlıq, keyfiyyətli reproduktiv sağlamlıq xidmətləri və sosial dəstək mexanizmləri də paralel şəkildə gücləndirilməlidir: "Beynəlxalq təcrübə göstərir ki, elmi əsaslı cinsi maarifləndirmə proqramları planlaşdırılmamış hamiləliklərin və dolayısı ilə abort göstəricilərinin azalmasına müsbət təsir göstərir, lakin bu nəticə yalnız kompleks yanaşma ilə mümkündür. Abort göstəriciləri təkcə tibbi statistika deyil, həm də cəmiyyətin reproduktiv sağlamlıq savadlılığını və sosial rifah səviyyəsini əks etdirən mühüm göstəricidir. Məqsəd abortu müzakirə etmək yox, planlaşdırılmamış hamiləliklərin qarşısını almaqdır. Çünki hər abort əslində vaxtında verilməmiş bir qərarın, gecikmiş bir məlumatın və ya əlçatmaz bir xidmətin nəticəsi ola bilər".

# KİÇİK QƏRAR, BÖYÜK TƏSİR

**Uşaqlara ad verilməsi məsələsi cəmiyyətdə hər zaman aktual olub. Son dövrlərdə bu sahədə müəyyən çatışmazlıqlar müşahidə edilsə də, yeni yanaşma vahid sistemin formalaşdırılacağından xəbər verir.**

SEVİNC ABBASOVA




Azərbaycanda uşaqlara ad verilməsi məsələsi yenidən ictimai müzakirə mərkəzinə çevrilib. Bu dəfə mövzuya səbəb "Uşaq hüquqları haqqında" yeni qanundur. Qanunda uşağın fərdiliyinin qorunması xüsusi vurğulanır və bu fərdilik anlayışı onun adı, vətəndaşlığı, ailə əlaqələrini də əhatə edir. Qanuna əsasən, uşağa verilən ad Ailə Məcəlləsi çərçivəsində müəyyənləşdirilməlidir. Bu isə o deməkdir ki, ad seçimi tam sərbəst proses olmaqla yanaşı, müəyyən hüquqi qaydalarla da tənzimlənir.

## "MİLLİ KİMLİK ZƏİFLƏYƏ BİLƏR"

Bu müzakirələrdə Milli Məclisin komitə sədri Fazil Mustafanın mövqeyi xüsusilə diqqət çəkir. Onun fikrincə, uzun illərdir Azərbaycanda uşaqlara ərəb, fars, rus, ingilis və digər xarici mənşəli adların verilməsi geniş yayılıb, bu tendensiya artıq bir növ ənənəyə çevrilib. Lakin o düşünür ki, bu ənənə milli kimliyin zəifləməsinə gətirib çıxara bilər. Deputatın yanaşmasına görə, yeni nəsillərə verilən adlar milli köklərə bağlı olmalıdır. Onun fikrincə, əgər hər nəsil əvvəlkindən daha çox xarici mənşəli adlara üstünlük verərsə, zamanla milli ad bazası zəifləyə və hətta unudula bilər.




## AD SİSTEMİNƏ TƏSİR EDƏN ƏSAS AMİLLƏR

AMEA Dilçilik İnstitutunun baş direktoru, Terminologiya Komissiyası nəzdində Şəxs Adları Komissiyasının sədri, professor Nadir Məmmədli "Kaspi"yə bildirib ki, Azərbaycan şəxs adları tarix boyu müxtəlif ad sistemlərinin təsirinə məruz qalıb: "VII əsrdən etibarən ərəb, XI əsrdən isə fars ad sistemləri qədim türk antroponimiyasına ciddi təsir göstərib, lakin onu sıradan çıxarmayıb. XIX əsrdən başlayaraq isə adlarımız rus ad sisteminin təsiri ilə yeni mərhələyə daxil olub. Müasir ad sistemi Qərbi Avropa mənşəli adlarla da zəngindir. İstər ərəb, fars, istərsə də rus əsarəti dövründə antroponimlər müəyyən dəyişikliyə uğrasalar da, xalqımızın dil xüsusiyyətlərinə uyğunlaşıblar".

Alimin sözlərinə görə, ad insanı tanıdan, onu digər fərdlərdən fərqləndirən əsas vasitədir və insan həyatında ən çox eşidilən söz onun öz adıdır: " Advermənin prinsiplərini düzgün müəyyənləşdirmək üçün antroponimik vahidlərin milli-etnik funksiyası əsas olmalıdır. Ad verilərkən məna və məzmun ön plana çəkilməli, daha çox estetik, üslubi cəhətə, advermə adət-ənənələrinə, leksik-semantik cəhətdən böyüklük, alilik, xoşbəxtlik, ucalıq, müdriklik, qəhrəmanlıq, gözəllik və s. anlayışlara diqqət yetirilməlidir".

## MİLLİ AD FONDU QORUNACAQ

Şəxs Adları Komissiyasının gələcək fəaliyyətinə də toxunan həmsöhbətimiz bildirib ki, yaradılmış komissiyanın gələcək fəaliyyəti nəticəsində şəxs adlarının elmi əsaslarla sistemləşdirilməsi, onların düzgün yazılış və işlənmə normalarının müəyyənləşdirilməsi istiqamətində mühüm addımların atılması gözlənilir. Bununla yanaşı, milli ad fondunun qorunması və zənginləşdirilməsi, həmçinin unudulmuş və tarixi ənənəyə malik adların yenidən dövriyyəyə qaytarılması da Komissiyanın əsas fəaliyyət istiqamətləri sırasında yer alır.

## ƏN QİYMƏTLİ VƏ UZUNÖMÜRLÜ "HƏDİYYƏ"

Sosioloq Üzeyir Şəfiyevin fikrincə, ad valideynin övladına verdiyi ən qiymətli və uzunömürlü "hədiyyə"dir və bu seçim yüksək məsuliyyət, diqqət və həssaslıq tələb edir.

Ü.Şəfiyev vurğulayıb ki, adın sadəcə identifikasiya funksiyası yoxdur, həm də güclü psixoloji təsir mexanizmi var: "Ad uşağın özünüqavrayışına, şəxsiyyətinin formalaşmasına və sosial mühitə inteqrasiyasına birbaşa təsir göstərir. Başqa sözlə, uşaq yalnız adı daşımır, müəyyən mənada onunla formalaşır. Bu kontekstdə ad, uşağın özünə münasibətini, özünə inamını və cəmiyyət içində mövqeyini müəyyən edən amillərdən biri kimi çıxış edir".




## MƏZMUNLU VƏ SİMVOLİK XARAKTER

Ekspertin sözlərinə görə, tarixən Azərbaycan mədəniyyətində advermə prosesi daha məzmunlu və simvolik xarakter daşıyıb: "Xalq dastanlarında və epik ənənədə uşağın adı təsadüfi seçilmirdi. O ya qəhrəmanlıq, ya da müəyyən xüsusiyyətlər əsasında "qazanılırdı". Dədə Qorqud kimi obrazların iştirakı ilə keçirilən mərasimlərdə ad uşağa bir növ sosial status, istiqamət verirdi. Bu, adın sadəcə söz yox, ideya və dəyər daşıyıcısı olduğunu göstərir".

### MƏSULİYYƏTSİZLİKDƏN YARANAN TRAVMA

Ü.Şəfiyev müasir dövrdə müşahidə olunan bəzi neqativ tendensiyalara da diqqət çəkib. O qeyd edib ki, valideynlərin bir qismi məsuliyyətsiz yanaşaraq uşaqlara məişət əşyalarının və ya təsadüfi sözlərin adını verir. Bu cür adlar isə uşağın sosial mühitdə stiqmatizasiyasına səbəb olur. Uşaq böyüdükcə həmyaşıdları tərəfindən lağ obyektinə çevrilir, nəticədə psixoloji travma, özünəqapanma və özünəinamın azalması kimi problemlər ortaya çıxır. Bir çox hallarda isə fərd yetkin yaşa çatdıqdan sonra adını dəyişmək məcburiyyətində qalır.

Ekspert digər problem kimi kütləvi mədəniyyətin təsirini göstərib. Onun sözlərinə görə, bəzi valideynlər serial və ya filmlərdə gördükləri obrazların adlarını onların mənasını və məzmununu araşdırmadan övladlarına verirlər. Halbuki həmin obrazların mənfi xarakter daşıması və ya milli-mədəni kontekstə uyğun olmaması mümkündür.

Ü.Şəfiyev mövcud problemin həllində milli adların seçilməsini ən optimal yanaşma kimi qiymətləndirib.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
20 İYUN ŞƏNBƏ 2026
www.kaspi.az




# PULUN FUTBOLA QALİB GƏLDİYİ MUNDİAL

Müasir futbolda kommersiya maraqları oyunun ən xırda detallarına belə təsir edir. Keçirilmə saatından tutmuş turnirlərin formatına, qarşılaşmaların sayından yayım qaydalarına qədər bir çox qərar iqtisadi səmərəlilik əsasında verilir.

Bir vaxtlar futbol sadəcə idman növü idi. İnsanlar məhəllələrindəki boş ərazilərdə topun arxasınca qaçır, klublar isə əsasən öz şəhərlərinin və ya hər hansı bölgənin simvolu hesab olunurdu. Bu gün futbol dünyanın ən böyük sənaye sahələrindən biridir. Milyardlarla avro dövriyyəsi olan transferlər, sponsor müqavilələri, yayım haqları, dayanmadan bir-birini əvəzləyən yeni-yeni marketinq layihələri oyunun iqtisadi tərəfini heç vaxt olmadığı qədər ön plana çıxarıb. Bəli, futbolun son illərdə ciddi şəkildə kommersiyalaşdığını inkar etmək çətindir.




## Su, yoxsa reklam fasiləsi?

Hazırda bütün futbolsevərlərin diqqəti ABŞ, Meksika və Kanadada keçirilən dünya çempionatına yönəlib. Bu üç ölkənin ev sahibliyi etdiyi mundial tarixdə ən böyük dünya çempionatı kimi yadda qalır. 48 komandanın mübarizə apardığı turnirdə meydanda baş verənlərlə yanaşı, FIFA-nın qəbul etdiyi qərarlardan biri də geniş müzakirə olunur.

Bu mundial əvvəlkilərdən bir sıra yenilikləri ilə fərqlənir. Onlardan biri oyunlarda məcburi su fasilələrinin tətbiq edilməsidir. İsti hava şəraiti nəzərə alınaraq FIFA hər hissədə bir dəfə olmaqla futbolçular üçün sərinləmə fasiləsi müəyyənləşdirib. Bu fasilələr 22-ci və 67-ci dəqiqələrdə verilir və 3 dəqiqə davam edir. İlk baxışdan bu qərar futbolçuların sağlamlığının qorunmasına xidmət edən düzgün addım kimi görünür. Həqiqətən də, bəzi oyunlar yüksək temperatur şəraitində keçirilir. Ancaq bu vəziyyət bütün qarşılaşmalara aid deyil. Üstəlik, məlum olub ki, televiziya yayımçıları həmin fasilələr zamanı reklamlara yer ayırırlar. Məhz bu məqam bir çox azarkeşdə suallar yaradır. Çünki belə görünür ki, qərarın arxasında təkcə futbolçuların sağlamlığı deyil, kommersiya maraqları da dayanır. Bu isə futbolun getdikcə daha çox biznes qaydaları ilə idarə olunduğu barədə fikirləri yenidən gündəmə gətirir.

## Oyunun ruhu üçün təhlükə yaranıb

Futbol mütəxəssisləri, məşqçilər, keçmiş futbolçular və hətta hazırda karyerasını davam etdirən oyunçular da bu qərara etiraz ediblər. Ümumi fikir ondan ibarətdir ki, belə məcburi fasilələr oyunun gedişinə ciddi təsir göstərir və futbolun axıcılığını pozur.

"Liverpul"un keçmiş baş məşqçisi Yurqen Klopp bu mövzu ilə bağlı bildirib ki, belə addımlar oyunun ruhu üçün təhlükəlidir:

"Futbol kondisionerli ofislərdə oturan rəhbərlər tərəfindən girov götürülüb. Dünya çempionatı oyunu çay kimi axmalıdır. Bunun əvəzinə, reklamların keçə bilməsi üçün ortada bəndlər tikirik. Bu, oyunun ruhu üçün təhlükəlidir. Əvvəllər əsas tədbir oyun idi, amma indi reklam tamaşası üçün fon musiqisinə çevrilmək riski daşıyır".

ABŞ millisinin baş məşqçisi Maurisio Poçettino, Niderland yığmasının kapitanı Vircil van Dayk və Belçika millisinin yarımmüdafiəçisi Yuri Tielemans kimi dünya çempionatının aktiv iştirakçıları da bu qaydaya qarşı çıxıblar. Onların fikrincə, su fasiləsi yalnız həqiqətən zəruri olduqda, məsələn, hakim tərəfindən xüsusi hallarda verilməlidir. Hər oyunda sabit qayda kimi tətbiq olunması isə məntiqsiz görünür.

Eyni zamanda qeyd olunur ki, bu fasilələr oyunun ritmini pozur. Xüsusilə hücumda üstünlük qazanan və oyunun tempini ələ alan komandalar üçün bu dayanma mənfi təsir yaradır və əldə olunan üstünlüyün itirilməsinə səbəb ola bilər.

## Futbolda hər şey daha çox pul üçün

Futbolçuların hüquqlarını qoruyan bir çox təşkilatlar illərdir artan oyun saylarına etiraz etsələr də, hələlik ciddi bir nəticə əldə olunmayıb. Əksinə, son dövrlərdə həm turnirlərin, həm də keçirilən oyunların sayı artmaqdadır. 48 komandanın iştirakı ilə keçirilən dünya çempionatı da bu tendensiyanın ən son və ən bariz nümunəsidir. Əvvəllər 32 komanda ilə təşkil olunan mundialın genişləndirilməsi daha çox oyun, daha çox sponsor, daha çox yayım və nəticə etibarilə daha çox gəlir deməkdir. Son illər Avropa futbolunda da oxşar mənzərə müşahidə olunur. UEFA Çempionlar Liqası və Avropa Liqasında komanda sayı artırılıb, yeni turnir kimi Konfrans Liqası yaradılıb. Eyni zamanda Avropa çempionatı daha geniş iştirakçı sayı ilə keçirilir. Bunlara əlavə olaraq Millətlər Liqası kimi yeni yarışlar da təqvimə daxil edilib. İndi futbolçular əvvəlkindən daha çox oyun yükü ilə üz-üzədirlər. Əsas ziddiyyətli məqam da burada üzə çıxır. Bir tərəfdən oyunda fasilə yaradılır ki, oyunçular su içə bilsinlər, digər tərəfdən hər il oyunların sayı daha da artırılır. Bu baxımdan, vəziyyət bir növ özünü inkar edir. Sağlamlığı qorumaq üçün tədbirlər görülür, amma həmin sağlamlığı daha çox yükləyən qərarlar qəbul edilir. Müasir futbolda kommersiya maraqları oyunun ən xırda detallarına belə təsir edir. Keçirilmə saatından tutmuş turnirlərin formatına, qarşılaşmaların sayından yayımlanma qaydalarına qədər bir çox qərar iqtisadi səmərəlilik əsasında verilir. Bu isə futbolun mahiyyətini dəyişir və romantik azarkeşlərin aşkar etirazlarına səbəb olur.